QARABAĞ AZƏRBAYCANDIR!



**Hər bir uğurumuz Heydər Əliyev siyasətinin təntənəsidir**

5

## “Yeni hökumətlə Azərbaycan arasında əməkdaşlıq uğurlu olacaq”

4



*Azərbaycan Prezidenti İlham Əliyev İtaliyanın müdafiə nazirini qəbul edib*

Səs

№ 005 (6688) 12 yanvar 2023-cü il. Qiymәti 60 qәpik

# 2023-cü il Ermənistan və Qarabağ separatçıları üçün son ildir!

11



*“Əgər "dqr hökuməti" danışmasa, Ermənistan yeni zərbələr alacaq". SİA xəbər verir ki, bu barədə jam.news-ə "Ani" araşdırmalar mərkəzinin koordinatoru, jurnalist Tatul Akopyan deyib. Onun sözlərinə görə, separatçı "rəhbərlik" öz məsuliyyət paylarını işə salmalıdırlar və Rusiyanın vasitəçiliyi ilə Azərbaycanla dialoqa getməyə çalışmalıdırlar.*

**“Erməni sakinlərin “blokada”ya alınması barədə iddiaları tamamilə əsassızdır”**




7

**"Qərbi Azərbaycan bizim tarixi torpağımızdır"**

Qərbi Azərbaycan İcması

4

**Restoranlarda depozit qiymətləri niyə "od bahasına"dır?**



4

## Bu gün yollar buz bağlayacaq



16

"Azərbaycanda vətəndaş rifahının təminatı, əhalinin sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin əsasını təşkil edir.

13



**“Azərbaycanda sosial paketin artımı daim dövlətin diqqət mərkəzindədir”**



11

**Qərinənin “Səs”i**

32 il öncə, ölkənin ictimai-siyasi həyatının mürəkkəb dövründə mətbu salnaməmizə yeni...

***Azərbaycan 2023-cü ilə böyük uğurlarla qədəm qoydu. Və geridə qoyduğumuz 2022-ci il Azərbaycanın tarixinə növbəti uğurlu dövr kimi həkk olundu. Vətən müharibəsinin bitməsindən qısa dövr ötməsinə, habelə pandemiyanın hələ də davam etməsinə baxmayaraq, ötən il respublikamızda iqtisadi və sosial sferada mühüm nailiyyətlər əldə edildi. Elə yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları yerli televiziya kanallarına müsahibəsində jurnalistlərin Azərbaycanda 2022-ci ildə iqtisadi, sosial sahələrdə görülən işlərə, Azərbaycan ilə Ermənistan arasındakı münasibətlərə, işğaldan azad edilmiş ərazilərdə aparılan yenidənqurma işlərinə, ölkəmizin xarici siyasətinə və digər məsələlərə dair suallarını cavablandırıb.***



# Müasir Azərbaycan, davamlı inkişaf, yüksələn rifah, güclü dövlət

## *İLHAM ƏLİYEV: "Bizim, ümumiyyətlə, iqtisadi və sosial sahədə siyasətimiz bir-birini tamamlayır"*

### ÖTƏN İLİN UĞURLARI BU İLİN PROQNOZLARI ÜÇÜN NƏ DEYİR?

Dövlət başçısı ötən ilin uğurlarından danışaraq bildirdi ki, 2022-ci ilin 11 ayın yekunlarının nəticələrinin uğurların gözlənilən idi: "İqtisadi artım 5 faizdən çoxdur. Bu, çox gözəl göstəricidir, xüsusilə müharibədən çıxmış ölkə üçün. Ən sevindirici hal odur ki, qeyri-neft iqtisadiyyatımız 7,2 faiz artıb. Bu, onu göstərir ki, qeyri-neft sektorunun inkişafı ilə bağlı bizim bütün planlarımız həyatda öz əksini tapır".Prezident İlham Əliyev, həmçinin sənaye istehsalında da uğurların olduğunun söylədi: "Sənaye istehsalına gəldikdə, həm ümumi sənaye istehsalımız 5 faizdən çox artıb, həm də qeyri-neft sənayemiz 20 faizə yaxın artıb. Hesab edirəm ki, bu, dünya miqyasında bəlkə də ən yüksək göstəricidir. Çünki biz neft amilini kənara qoysaq, real iqtisadi və sənaye artımı məhz bu rəqəmdə özünü əks etdirir". Dövlət başçısı valyuta ehtiyatlarımızın da artdığını deyərək vurğuladı ki, keçən il xüsusilə Qarabağ və Şərqi Zəngəzur bölgələrində və ölkəmizin digər yerlərində investisiya proqramı tam icra edilmişdir. Buna baxmayaraq, valyuta ehtiyatlarımız 2,5 milyard dollar artıb: "Bildiyiniz kimi, mənim hökumətə ümumi göstərişim ondan ibarət idi ki, biz valyuta ehtiyatlarının azalmasına imkan verməməliyik. Əgər lazım olarsa, xərcləri, xüsusilə investisiya xərclərini bir qədər azaldıb, amma valyuta ehtiyatlarımızı sabit saxlamalıyıq və çalışmalıyıq ki, artıraq. Çünki bu, bizə iqtisadi müstəqillik verir və iqtisadi müstəqillik olmadan, siyasi müstəqillikdən danışmaq mümkün deyil". Azərbaycan Prezidenti onu da söylədi ki, Azərbaycan nadir ölkələrdən biridir ki, bizdə xarici ticarət balansının saldosu müsbətdir: "Çünki dünyanın əksər ölkələrində idxal ixracı üstələyir. Bizdə isə ilin yekunlarına görə, ixrac idxalı böyük dərəcədə üstələyib və müsbət saldo 10 milyard dollardan çoxdur. İqtisadiyyatla məşğul olan hər bir adam bunun nə dərəcədə əhəmiyyətli olmasını görür. Əlbəttə ki, ilk növbədə, manatın sabit qalmasına bunun ən böyük təsiri var. Uzun illər ərzində manat sabitdir və həm ölkə əhalisi bundan faydalanır, həm də manata inam böyük dərəcədə artıb. Manat depozitlərinin həcmi artır və ümumi depozitlərin balansında artıq üstünlük təşkil edir. Bunun investorlar üçün də çox böyük faydası var. Çünki investorlar da görürlər ki, milli valyuta sabitdir. Belə olan halda investisiyalar, o cümlədən xarici investisiyalar daha böyük həcmlə təşkil oluna bilər".

**İKİNCİ QARABAĞ**

### MÜHARİBƏSİNİN NƏTİCƏLƏRİ DÜNYA TƏRƏFİNDƏN QƏBUL EDİLİB

Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində söyləyib ki, İkinci Qarabağ müharibəsindən sonra bizim əsas vəzifəmiz şanlı hərbi Qələbəmizi siyasi müstəvidə də təsdiqləmək idi: "Biz dərhal işə başladıq. Çünki yaxşı başa düşürdük ki, əgər biz siyasi sahədə bu Qələbəni təsdiqləməsək, bu Qələbəni dünya ictimaiyyətinə qəbul etdirməsək, müəyyən problemlərlə üzləşə bilərik". "Dərhal fəal işə başladıq və hesab edirəm ki, bu gün - artıq müharibədən iki il keçəndən sonra tam əminliklə deməK olar ki, müharibənin nəticələri dünya tərəfindən qəbul edilib. Azərbaycanın haqlı olması bir daha təsdiqlənib və müharibənin sonunda yaranmış vəziyyəti biz daha da möhkəmləndirməliyik, yəni, öz mövqelərimizi daha da gücləndirməliyik. Son iki il ərzində həm beynəlxalq əlaqələr müstəvisində, həm ölkə daxilində biz istədiyimizə nail ola bilmişik", - deyə dövlətimizin başçısı bildirib.

### BU GÜN AZƏRBAYCAN DÜNYADA ÇOX ETİBARLI VƏ CİDDİ TƏRƏFDAŞ KİMİ TANINIR

Dövlət başçısı bu gün Azərbaycannın dünyada etibarlı və ciddi tərəfdaş kimi tanındığını söylədi: "Bu gün sirr deyil ki, Azərbaycan dünyada çox etibarlı və ciddi tərəfdaş kimi tanınır. Azərbaycan o ölkələrdəndir ki, öz sözünü açıq deyir, müstəqil siyasət aparır. Əlbəttə ki, bunun təməlində həm hərbi gücümüz, həm də şanlı Qələbəmiz dayanır". Dövlətimizin başçısı onu da söylədi ki, müharibədən sonrakı proseslərdə bir daha bunun şahidiyik: "Çünki mən bunun canlı şahidiyəm ki, müharibədən sonra onsuz da Azərbaycan siyasətinə olan müsbət münasibət daha da artdı, yəni, bizə olan rəğbət daha da artdı. Çünki dünyanın siyasi elitası yaxşı başa düşür ki, biz bu Qələbəni nəyin bahasına əldə etdik, hansı risklərə getdik, hansı qüvvələrlə mübarizə aparırdıq və bu gün də aparırıq. Yəni, müharibə bitsə də, mübarizə hələ davam edir və əminəm ki, biz qalib gələcəyik. Çünki biz haqq yolundayıq və bizim həm hərbi, həm siyasi gücümüz, o cümlədən iqtisadi müstəqilliyimiz gücümüzü əlbəttə ki, artırır".

### BÖHRANLI VƏZİYYƏTİ XALQIMIZ ÜÇÜN SOSİAL LAYİHƏLƏR VƏ SOSİAL PROQRAMLARLA YÜNGÜLLƏŞDİRMƏYƏ ÇALIŞIRIQ

"Dünya postpandemiya dövrünə hələ təzə-təzə uyğunlaşır. Bir çox ölkələrdə, o cümlədən Azərbaycanda kəskin qiymət artımı müşahidə olunur. Bizim də iqtisadiyyatımız dünya iqtisadiyyatının bir parçası olduğu üçün əfsuslar olsun ki, biz də bu mənfi təsirə məruz qalmışıq",- deyən dövlətimizin başçısı deyib ki, dünya üçün bu böhranlı vəziyyəti biz xalqımız üçün sosial layihələrlə, sosial proqramlarla yüngülləşdirməyə çalışırıq: "Bu yaxınlarda imzaladığım çox geniş sosial paket bir daha bunu göstərir. Yəni, müharibədən təzə çıxmış ölkə, özü də ərazisinin 20 faizi tamamilə dağılmış vəziyyətdə olan ölkə əgər sosial sahəyə bu qədər vəsait ayırırsa, deməli, bizim sosial siyasətimiz dəyişməz olaraq qalır və əlbəttə ki, bizim iqtisadi gücümüzü göstərir".

### MİNİMUM ƏMƏKHAQQININ 15 FAİZ ARTMASI İNFLYASİYANIN FƏSADLARININ YUMŞALDILMASINA HESABLANIB

"Minimum əməkhaqqının 15 faiz artması inflyasiyanın fəsadlarının yumşaldılmasına hesablanıb və minimum əməkhaqqı artıq 345 manata çatıb". Bunu Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində sosial rifah sahəsində atılan praktiki addımlardan danışarkən deyib."Bu, bizi qane edir? Əlbəttə ki, yox. Amma biz imkan daxilində öz addımlarımızı atırıq. Çünki bir daha demək istəyirəm, bizim əsas xərclər istiqaməti Qarabağı və Şərqi Zəngəzuru bərpa etmək və ordu potensialımızı gücləndirməkdir. Bu iki əsas prioritet bizim üçün uzun illər prioritet kimi qalacaq", - deyə Azərbaycan Prezidenti vurğulayıb. Dövlətimizin başçısı qeyd edib ki, pensiyaçıların sosial təminatının yaxşılaşdırılması üçün minimum pensiya da 16,7 faiz artırıldı, 280 manata çatdı və bu proses davam etdiriləcək. Bu, müntəzəm olaraq atılan addımlardır və iqtisadi imkanlarımız artdıqca, gələcəkdə də buna oxşar addımlar atılacaq.

### BU İL AZƏRBAYCANDA ORTA AYLIQ ƏMƏKHAQQININ 900 MANATDAN ÇOX OLACAĞI GÖZLƏNİLİR

Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində bildirib ki, ünvanlı sosial yardımın verilməsi ilə bağlı çox böyük şəffaflaşdırma işi aparılıb: "Əvvəlki dövrlərdə bu sahədə çox böyük pozuntulara yol verilmişdi. Ehtiyacı olmayan insanlara sosial yardım verilirdi və əlbəttə ki, bunun arxasında təmənna dayanırdı. Ehtiyacı olan insanların isə buna əli çatmırdı. Ona görə bu sahədə çox geniş təftiş işi aparılıb". "Bu gün 60 minə yaxın ailə dövlətdən ünvanlı sosial yardım alır və ildən-ilə bu yardımın məbləği artır. Yəni, bu il bir ailəyə düşən müavinət təqribən 460 manat səviyyəsindədir və əlbəttə ki, il ərzində artacaq, o cümlədən orta aylıq əməkhaqqı da. Biz gözləyirik ki, bu il Azərbaycanda orta aylıq əməkhaqqı 900 manatdan çox olacaq. Beləliklə, sosial sahədə bu addımları ataraq həm ehtiyacı olan insanlara arxa-dayaq oluruq, eyni zamanda, biz öz siyasətimizə sadiqliyimizi göstəririk", - deyə dövlətimizin başçısı vurğulayıb.

Ardı Səh. 3

# Müasir Azərbaycan, davamlı inkişaf, yüksələn rifah, güclü dövlət

## İLHAM ƏLİYEV: "Bizim, ümumiyyətlə, iqtisadi və sosial sahədə siyasətimiz bir-birini tamamlayır"

Əvvəli-Səh-2

### AZƏRBAYCAN SOSİAL DÖVLƏTDİR VƏ BİZ BUNU SÖZLƏ YOX, ƏMƏLİMİZLƏ TƏSDİQLƏYİRİK

İkinci Qarabağ müharibəsində əlil olmuş 379 hərbçinin ən müasir protezlərlə təmin edildiyini deyən dövlət başçımız onu da vurğulayıb ki, cəmi iki il keçməsinə baxmayaraq, İkinci Qarabağ müharibəsinə aid olan bu proqram tam yerinə yetirilib: "Yəni, biz öz sağlamlığını itirmiş soydaşlarımıza maksimum dərəcədə kömək göstərməyə çalışırıq. Əlbəttə ki, bu, yüksək texnologiyalı protezlər olduğu üçün onlar vaxtaşırı dəyişdirilməlidir.

Bütün bu proqramlar da gündəlikdədir". Sosial sahənin çoxşaxəli olduğunu qeyd edən dövlətimizin başçısı deyib ki, buraya özünüməşğulluq proqramını da əlavə etmək olar. "Bir neçə il ərzində belə bir təşəbbüs irəli sürüldü. Çox böyük maraq doğurdu və bu gün 60 min ailə özünüməşğulluq proqramına cəlb edilib. Hətta biz beynəlxalq maliyyə institutlarını da bu proqrama cəlb etmişik. Bu, həm sosial, həm iqtisadi, həm iş yerlərini, yəni, bütün bu sahələri əhatə edən bir sahədir. Ona görə bu il də istisna olmayacaq. Çünki bir daha demək istəyirəm, Azərbaycan sosial dövlətdir və biz bunu sözlə yox, əməlimizlə təsdiqləyirik. İmkan daxilində bu il də bu proqramlar icra ediləcək".

### BİZ TAM HAQLI OLARAQ QƏRBİ AZƏRBAYCANLILARIN HÜQUQLARI MÖVZUSUNU BEYNƏLXALQ ARENAYA ÇIXARMIŞIQ

"Bu gün sirr deyil ki, Qərbi Azərbaycan İcması uzun illər deportasiyaya məruz qalmış İcma kimi öz hüquqlarından məhrum idi. Əlbəttə ki, Qarabağ dərdi, problemi olan yerdə Qərbi azərbaycanlıların hüquqlarından danışmaq bəlkə də vaxtından əvvəl atılan bir atəşə bənzəyə bilərdi. Amma bu gün hesab edirəm ki, biz tam haqlı olaraq bu mövzunu artıq beynəlxalq arenaya çıxarmışıq",-deyən dövlət başçısı deyib: "Mənim tövsiyələrim, yəni, dekabrın 24-də verdiyim tövsiyələr yerinə yetirilir. Xüsusi işçi qrupu yaradılıb, verdiyim bütün tapşırıqlar və eyni zamanda, yerlərdən gələn təkliflər əsasında biz vahid konsepsiya üzərində işə başlamışıq. Əlbəttə ki, Qərbi azərbaycanlılar öz dədə-baba torpaqlarına qayıtmalıdırlar, bu, onların hüququdur, bütün beynəlxalq konvensiyalar bu hüququ onlar üçün tanıyır. Biz də Azərbaycan dövləti olaraq əlimizdən gələni etməliyik ki, bu hüququ təmin edək. Yenə də mən orada da İcmanın nümayəndələri ilə görüş zamanı demişdim ki, biz bunu sülh yolu ilə etmək istəyirik və əminəm ki, buna nail olacağıq". Prezident İlham Əliyev qeyd edib ki, bu gün bizim məkanda, ümumiyyətlə, Avrasiya məkanında monodövlətlər yoxdur və Ermənistan üçün də yaxşı olar ki, bu monodövlət damğasını öz üzərindən götürsün. Bunun ən yaxşı və ən ədalətli yolu Qərbi azərbaycanlıların öz doğma torpaqlarına qayıtmalarıdır.

### RUSİYA-UKRAYNA MÜHARİBƏSİ BAŞLAYANDAN SONRA AZƏRBAYCANA QAZLA BAĞLI 10-DAN ÇOX ÖLKƏ MÜRACİƏT EDİB

"Rusiya-Ukrayna müharibəsi başlayandan sonra bizə 10-dan çox ölkədən müraciətlər daxil olub. O ölkələrdən ki, indi bizim qazımızı alırlar və istəyirlər əlavə qaz təchizatı təmin edilsin və o ölkələrdən ki, heç vaxt bizdən qaz almırdılar, amma onlar da bu proqrama qoşulmaq istəyirlər. Təbii ki, burada Azərbaycanın rolu artır və biz də, əlbəttə, bundan istifadə etməliyik". Bu fikirləri Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində söyləyib. Dövlətimizin başçısı deyib: "Biz heç vaxt qaz və neft sahəsindəki siyasətimizi ümumi siyasi kontekstin əsas amilinə çevirməmişik. Çünki biz hesab edirik ki, siyasət ayrı, bu ayrı. Amma indi dünyada enerji siyasəti ümumi geosiyasi vəziyyətlə tamamilə vəhdət təşkil etdiyi üçün bu amili də inkar etmək olmaz. Əlbəttə, bizim həm iqtisadi, həm siyasi önəmimiz artır və əgər Avropanı qidalandıran qaz kəmərlərinə baxsaq görərik ki, onların sayı o qədər də çox deyil. Yəni, mövcud təchizatçılar, sadəcə olaraq, qaz hasilatını artırırlar, çünki Avropada böyük tələbat var. Yeni təchizatçılar arasında isə Azərbaycan təkdir". Avropa İttifaqı ilə təkcə energetika sahəsində yox, bütün sahələrdə çox fəal əməkdaşlığımızın olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev qeyd edib ki, diqqət Azərbaycan üzərinə yönəldilir: "Əlbəttə, biz öz məsuliyyətimizi də dərk edirik və çalışırıq ki, yeni tərəfdaşlar üçün də etibarlı tərəfdaş olaq".

### ERMƏNİ TƏRƏFİ DANIŞIQLAR PROSESİNİ POZUR VƏ BUNUN SƏBƏBLƏRİ MƏNƏ MƏLUMDUR

Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində Ermənistanla danışıqların davam etdirilməsi perspektivi ilə bağlı sualı cavablandırarkən söyləyib: "Erməni tərəfi danışıqlar prosesini pozur və bunun səbəbləri mənə məlumdur. Ermənistanın qüvvəsinin olub-olmaması və bu qüvvəyə diasporun təsir göstəribgöstərməməsi məsələsinə gəldikdə düşünürəm ki, belə təsir var və kiminsə buna mane olmasına istinad etmək məsuliyyəti öz üzərindən atmaq üçün çox münasib yoldur". Dövlətimizin başçısı deyib: "Əgər hakimiyyət məsuldursa, o, öz hərəkətlərinə görə cavab verməlidir. Hər ölkənin, hər bir liderin öz çətinlikləri var, lakin bununla spekulyasiya etmək olmaz. Bu, necə deyərlər, evin daxili işidir, hər kəs yalnız sülh məsələsinin gündəlikdə olmasını artikulyasiya etməklə kifayətlənməyib bu işi görməli - ictimaiyyəti inandırmalı, həqiqətən sülhə can atmaq üzərində işləməlidir".

### ERMƏNİSTAN YƏQİN Kİ, HANSISA GEOSİYASİ DƏYİŞİKLİKLƏR, KİMİNSƏ VƏD ETDİYİ NƏLƏRİSƏ GÖZLƏYİR

> *"Ermənistan nə gözləyir? Yəqin ki, hansısa geosiyasi dəyişikliklər, ola bilsin ki, kiminsə ona vəd etdiyi nələrisə gözləyir. Çünki belə təəssürat yaranır ki, ona kimsə nə isə vəd edib"*

Dövlətimizin başçısı deyib: "Ermənistan nə gözləyir? Yəqin ki, hansısa geosiyasi dəyişikliklər, ola bilsin ki, kiminsə ona vəd etdiyi nələrisə gözləyir. Çünki belə təəssürat yaranır ki, ona kimsə nə isə vəd edib. Ona görə ki, regionda vəziyyətin obyektiv təhlili, qüvvələr balansı və iki il bundan əvvəl baş vermiş hadisələrə, eləcə də keçən ilin sentyabr ayında baş vermiş və ya hazırda Laçın-Xankəndi yolunda baş verən hadisələrə dünyanın reaksiyası onu göstərir ki, suda batanların xilas edilməsi onların öz işidir. Biz kömək edə bilərik".

### DÜŞÜNÜRƏM Kİ, ONLAR MƏNİM MESAJLARIMI EŞİDƏCƏK VƏ DÜZGÜN NƏTİCƏ ÇIXARACAQLAR

"Biz uzun müddət belə yaşaya bilərik, sülh müqaviləsi olmasa heç lazım da deyil. Amma sonra nə olacaq? Sonrasına baxarıq. Buna görə də düşünürəm ki, onlar mənim mesajlarımı eşidəcək və düzgün nəticə çıxaracaqlar". Bu barədə Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində bildirib. "Bir daha deyirəm, mən indiki halda təzyiq göstərən tərəf kimi görünmək istəmirəm və heç bir halda, heç bir şəraitdə həttа hörmətə layiq olmayana da hər hansı hörmətsizlik göstərməmişəm. Sadəcə, bir daha nəzərə çatdırmalıyam. Ona görə ki, mənim fikrimcə, bu il sonuncu şans olacaq. Ona görə ki, sonra 2024-cü il gəlir, sonra 2025-ci ildə Rusiyanın sülhməramlı missiyası başa çatır. Onlar burunlarının ucundan bir qədər irəli barədə düşünməlidirlər", - deyə dövlətimizin başçısı Ermənistan tərəfinə xəbərdarlıq edib.

### BİZ ERMƏNİSTANLA MƏSƏLƏNİ HƏLL ETMİŞİK, AMMA TƏHDİDLƏR ARADAN QALXMAYIB

"Biz Ermənistanla məsələni həll etmişik. Əminəm ki, üçüncü müharibə olmayacaq. Amma təhdidlər aradan qalxmayıb, müharibədən sonra yeni təhdidlərlə üzləşmişik". Bu fikirləri Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində söyləyib. Dövlətimizin başçısı deyib: "Bu təhdidlərə sinə gərmək asan məsələ deyil - həm iradə olmalıdır, həm də ki, özündə əminlik olmalıdır. Biz heç vaxt avantüraya getməmişik və getməyəcəyik. Əgər bu təxribatlara qarşı biz, necə deyərlər, çox sarsıdıcı şapalaq vurmuşuqsa, deməli bu, sadəcə olaraq, təbliğat deyil, özümüzdə güc hiss edirik. Hər kəs bunu bilməlidir ki, bizimlə heç kim zarafat etməsin. Biz bunu müharibədən dərhal sonra başlamışıq. Çünki bilirdik ki, dünyanın gələcəyini bu, müəyyən edəcək". Prezident qeyd edib ki, Rusiya-Ukrayna müharibəsindən sonra hər kəs bunu edir. Ordu quruculuğuna ümumiyyətlə fikir verməyən Avropanın ən böyük ölkələri indi ordularını yaradırlar: "İndi vahid Avropa ordusu haqqında danışmağa başlayıblar. İndi hərbi təyinatlı məhsulları buraxmağa başlayıblar, yaxud da ki, genişləndirirlər. Biz buna nə vaxtdan başlamışıq? Artıq 15 ildir. Onu da bildirməliyəm ki, biz əsas Türkiyə və İsrail şirkətləri ilə, digər ölkələrin şirkətləri ilə yeni kontraktlar bağlamışıq, eyni zamanda, yerli istehsalı genişləndirmək üçün bir neçə aparıcı şirkətlə indi danışıqların son mərhələsindəyik".

### ERMƏNİSTANA İSTƏNİLƏN SİLAH VERİLƏRSƏ, ONLARA KÖMƏK ETMƏYƏCƏK

"Ermənistana istənilən silah verilərsə, onlara kömək etməyəcək və mən Ermənistan tərəfinə bir neçə dəfə bunu demişəm. Demişəm ki, buna əbəs yerə vəsait xərcləməyin. Çünki birincisi, bu, sizə kömək etməyəcək, ikincisi ölkənizdə olan revanşist qüvvələrdə hansısa bir illüziya yarada bilər. İllüziya yarada bilər ki, siz revanş edə bilərsiniz. Edə bilməyəcəksiniz!". Bunu Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində deyib. "Biz əgər görsək ki, bizim üçün hər hansı bir ciddi təhlükə varsa, bu təhlükəni dərhal dəf edəcəyik. Baxmayaraq ki, bu təhlükə harada yaranıb, bizim ərazimizdə, yaxud da ki, hüdudlarımızın kənarında. Bu, bizim legitim hüququmuzdur. Ona görə belə cəhdlər var və biz görürük, bilirik hansı ölkələr Ermənistana silah verməyə hazırlaşırlar. Əfsuslar olsun ki, onların arasında Hindistan da indi rol alıb. Biz bunu qeyri-dost addım kimi qiymətləndiririk. Çünki bu silahların, özü də hücum silahlarının bir hədəfi var, o da Azərbaycandır", - deyə dövlətimizin başçısı qeyd edib. Prezident vurğulayıb ki, biz lazımi tədbirləri görürük və Ermənistanın bizim üçün təhlükə yaratmasına heç vaxt imkan verə bilmərik.

### AZƏRBAYCAN PREZİDENTİ: ERMƏNİSTAN NƏHAYƏT ANLAYACAQ Kİ, SÜLH MÜQAVİLƏSİ QAÇILMAZDIR

"Son bir il ərzində - mart ayından bəri biz üç dəfə göstərdik ki, heç kim bizim qabağımızda dura bilməz və istədiyimizə nail oluruq və hər hansı bir erməni havadarı onların yardımına yetişə bilməz. Bu, birincisi. İkincisi, həm Azərbaycan-Ermənistan sərhədi istiqamətində, eyni zamanda, Qarabağ istiqamətində nəzarətdə olan yüksəkliklər bizə çox böyük strateji üstünlük təmin edir". Bunu Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində deyib. "Artıq vizual müşahidə bizə imkan verir ki, istənilən təhlükəni bəri başdan görək və onun qarşısını alaq. Hesab edirəm ki, artıq üç dəfə belə hərbi və siyasi uğursuzluğa düçar olmuş Ermənistan anlayacaq ki, sülh müqaviləsi qaçılmazdır. Onlar bunu nə qədər tez anlasalar və nə qədər tez özlərində güc tapıb, iradə tapıb buna razılıq versələr, o qədər də bölgə üçün yaxşı olacaq", - deyə dövlətimizin başçısı vurğulayıb. Azərbaycanın üçüncü müharibəni başlamaq fikri olmadığını qeyd edən Prezident İlham Əliyev deyib ki, indi bəzi Qərb mətbuatında bizə qarşı yeni dalğa, çirkin böhtan kampaniyası geniş vüsət alır: "Onun ilk təzahürlərini biz görürük, amma ehtimal edilir ki, növbəti çirkin addımlar da atılacaq. Amma bu, bizi dayandırmayacaq. Ona görə mən hesab edirəm və ümid etmək istəyirəm ki, 2023-cü il İkinci Qarabağ müharibəsinin real sonu olacaq və bu il belə hadisələr baş verməyəcək".

Bax, budur müasir Azərbaycan həqiqətləri. Bütün bunlar əlbəttə ki, bu gün Azərbaycanın qazandığı uğurları şərtləndirən əsas amil Prezident İlham Əliyevin düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrasıdır. Və yuxarıda deyilənlərdən hasil olan nəticə ondan ibarətdir ki, iqtisadi müstəqilliyin təmin edilməsi Azərbaycanın tarixi nailiyyətidir. Bu gün heç bir xarici dövlət, heç bir beynəlxalq təşkilat ölkəmizlə diktat dili ilə danışmır və danışa da bilməz. Dövlət başçımızın söylədiyi kimi: "Əsl siyasət konkret, real iş görməkdir". Məhz, son illər ərzində görülən işlər, açılan istehsal müəssisələri bir daha onu göstərir ki, Prezident İlham Əliyev Azərbaycan iqtisadiyyatını düzgün əsaslar üzərində qurmaqla dayanıqlı inkişafı təmin edir, ən əsası dünyaya yeni iqtisadi modeli nümayiş etdirir. Azərbaycan xalqı həmişə öz liderinə güvənib və inanıb, ona arxa-dayaq olub. Bütün bunlar onu göstərir ki, 2023-cü ildə qarşıda duran vəzifələr tam yerinə yetiriləcək, Azərbaycan beynəlxalq müstəvidə öz maraqlarını uğurla həyata keçirəcək.

**RƏFİQƏ KAMALQIZI**

# "Yeni hökumətlə Azərbaycan arasında əməkdaşlıq uğurlu olacaq"

## *Azərbaycan Prezidenti İlham Əliyev İtaliyanın müdafiə nazirini qəbul edib*

***Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 11-də İtaliya Respublikasının müdafiə naziri Quido Krosettonu qəbul edib. Prezident İlham Əliyev strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-İtaliya ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyini bildirərək, bu baxımdan yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini vurğuladı, özünün İtaliyaya son səfərini məmnunluqla qeyd etdi.***



Dövlətimizin başçısı İtaliya Respublikası Nazirlər Şurasının yeni Sədri Ciorcia Meloniyə təbrik məktubu göndərdiyini xatırlayaraq, yeni hökumətin formalaşmasından qısa müddət keçməsinə baxmayaraq, müdafiə naziri səviyyəsində ölkəmizə səfərin həyata keçirilməsinin əlaqələrimizin yaxşı göstəricisi olduğunu qeyd etdi və əminliyini bildirdi ki, yeni hökumətlə Azərbaycan arasında əməkdaşlıq uğurlu olacaq.

Romanın tarixi rayonunda Azərbaycan səfirliyinin yeni binasının açılışında ilk tədbirin ADA Universiteti ilə İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi arasında akademik əməkdaşlığa dair imzalanmış sazişlərin mübadiləsi mərasiminə həsr olunduğunu xatırladan Prezident İlham Əliyev İtaliya-Azərbaycan Universitetinin Azərbaycandakı binasının inşasının yekunlaşmaq üzrə olduğunu dedi.

Dövlətimizin başçısı Azərbaycan-NATO və Azərbaycan-Avropa İttifaqı əlaqələrinin genişlənməsində İtaliyanın verdiyi töhfəni yüksək qiymətləndirərək qeyd etdi ki, ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən energetika sahəsində uğurlu əməkdaşlıq aparılır. Prezident İlham Əliyev bu baxımdan Cənub Qaz Dəhlizinin səmərəli fəaliyyətini vurğuladı. Prezident İlham Əliyev Quido Krosettonun Azərbaycana səfərinin həm ölkələrimizin aidiyyəti qurumları arasında, həm də daha geniş mənada əməkdaşlığın möhkəmlənməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi, ikitərəfli münasibətlərimizin bundan sonra da möhkəmlənəcəyinə ümidvarlığını ifadə etdi.

Prezident İlham Əliyev ilə görüşdən şərəf duyduğunu bildirən Quido Krosetto, ilk növbədə, İtaliya Prezidenti Sercio Mattarellanın salamlarını dövlətimizin başçısına çatdırdı və qeyd etdi ki, səfərdən öncə İtaliya Prezidenti ilə görüşü zamanı Sercio Mattarella özünün Azərbaycana, dövlətimizin başçısının isə İtaliyaya səfərini məmnunluqla xatırlayıb və Azərbaycan Prezidenti ilə dostluq əlaqələrinin mövcudluğunu bir daha vurğulayıb.

Dövlətimizin başçısı salamlara və xoş sözlərə görə minnətdarlığını bildirdi, onun da salamlarını İtaliya Prezidentinə çatdırmağı xahiş etdi.

Quido Krosetto səfərdən əvvəl, eyni zamanda, İtaliya Respublikası Nazirlər Şurasının Sədri Ciorcia Meloni ilə də görüşdüyünü bildirərək qeyd etdi ki, Ciorcia Meloni vurğulayıb ki, İtaliya müdafiə nazirinin ölkəmizə səfəri İtaliya hökumətinin Azərbaycanla əməkdaşlığı daha da genişləndirmək əzmində olduğunu göstərir.

Nazir Quido Krosetto qeyd etdi ki, Azərbaycan Prezidentinin İtaliyaya səfərləri bu ölkədə hər zaman böyük məmnunluqla qarşılanır. Qonaq Prezident İlham Əliyevin Azərbaycan-NATO və Azərbaycan-Avropa İttifaqı əlaqələrinin inkişafında İtaliyanın oynadığı rola verdiyi qiymətə görə minnətdarlığını ifadə etdi.

Quido Krosetto Bakıda gedən inkişaf proseslərinin onlarda dərin təəssürat hissi yaratdığını dedi. Söhbət zamanı energetika, inşaat, turizm, kənd təsərrüfatı, müdafiə sənayesi və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu bildirildi.

# "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır"

**"24 dekabr tarixində Prezident İlham Əliyev Qərbi Azərbaycan İcmasının ziyalıları ilə görüşündə bir çox vacib məqamlara toxundu. O qeyd etdi ki, gün gələcək Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Necə ki, bu gün Zəngilan rayonunun Ağalı kəndində yaşayan insanların böyük əksəriyyəti, eyni zamanda, uşaqlar, gənclər onlar üçün doğma olan torpaqlarına geri dönüblər. Heç şübhəsiz ki, onları oraya getməyə vadar edən torpaq həsrəti və Vətən sevgisidir". Bu sözləri SİA-ya açıqlamasında deputat Ceyhun Məmmədov deyib.**

Onun sözlərinə görə, Prezident İlham Əliyev 11 il öncə öz ad günündə Ağcabədidə məcburi köçkünlərlə bir yerdə olarkən demişdi: ""Gün gələcək, siz məni öz doğma diyarınızda qəbul edəcəksiniz, mən sizin diyarınıza qonaq gələcəyəm". Həyata keçirilən uğurlu daxili və xarici siyasət nəticəsində o gün gəldi, insanlarımız öz doğma yurdlarına qayıtdılar. Ona görə Qərbi azərbaycanlılar da heç vaxt inamı itirməməlidir. Gün gələcək, biz Qərbi Azərbaycanda bu günü xatırlayacağıq.




Tarixdən hər kəsə məlum olduğu kimi, Qərbi Azərbaycan bizim tarixi torpağımızdır. Vaxtilə türk dünyasının qədim və ayrılmaz diyarı olan Zəngəzur bölgəsi Azərbaycandan qoparılıb Ermənistana verilib".

Deputat sözlərinə belə davam edib: "Tarixi Azərbaycan torpaqları olan Qarabağ və Zəngəzura XIX əsrin əvvəllərindən başlayaraq ermənəni əhalisinin yerləşdirilməsi, 1920-ci illərdə sovet hakimiyyətinin qərarı ilə heç bir əsas olmadan tarixi diyarımız olan Qərbi Zəngəzurun Ermənistana verilməsi, 1948-1953-cü illərdə yüz minlərlə azərbaycanlının indiki Ermənistan ərazisindəki əzəli yurdlarından köçürülməsi xalqımıza qarşı erməni təcavüzünün qanlı səhifələridir. Bu, xalqımıza qarşı növbəti düşmənçilik və ədalətsizlik idi. Çünki Zəngəzurun şərqində də, qərbində də Azərbaycan xalqı əsrlər boyu yaşamışdır və indiki Ermənistan ərazisində olan Qərbi Zəngəzurun bütün toponimləri Azərbaycan xalqına məxsus idi.

Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə köçürülməyə məruz qalmışlar. Vaxt gələcək onların hüquqları bərpa ediləcək və onlar öz doğma torpaqlarına qayıdacaqlar. Əsas məsələ ondadır ki, biz inamımızı itirmirik. Biz Ali Baş Komandanımız İlham Əliyevin yürütdüyü siyasət nəticəsində buna nail olacağımıza əminik".

***Ayşən Vəli***

# "Qlobal iqtisadiyyatda baş verənlər Azərbaycana da təsirsiz ötüşmür"

***"Təbii olaraq qlobal iqtisadiyyatda baş verənlər onun tərkib hissəsi olduğu üçün Azərbaycana təsirsiz ötüşmür. O cümlədən, inflyasiyanın təsirləri Azərbaycana mənfi tərəfini göstərib. Azərbaycanda olan inflyasiya səviyyəsinə baxdıqda bu məsələ ilə bağlı orta mövqe tutduğumuzu görərik. Yəni, inflyasiyanın daha az olduğu ölkələr sırasında olmasa da, daha dəhşətli olduğu, tüğyan etdiyi ölkələr arasında da deyilik". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Eldəniz Əmirov deyib.***

Onun sözlərinə görə, Azərbaycanda inflyasiya səviyyəsi təxminən 14%-dir: "Ərzaq inflyasiyası isə 20-21% arasında formalaşıb. Buna görə Azərbaycanın digər ölkələrlə müqayisədə inflyasiya səviyyəsinə görə ortadan bir qədər yuxarı səviyyədə qərarlaşdığını müşahidə edə bilərik. Söhbət qlobal böhranda davranışdan gedir. Yəni, düşünürəm ki, qlobal iqtisadiyyatda baş verən böhran və ölkələrin bu böhrandan çıxması üçün atdığı addımlar məsələsində Azərbaycanın mövqeyi daha güclüdür. Çünki bu inflyasiyaya qarşı mübarizə kontekstində çox ciddi şəkildə addımlar atıldı.

Hesab edirəm ki, bu il ərzində hökumətin proqnoz etdiyi kimi inflyasiya 6,9 % deyil, bir qədər yuxarı olacaq. 2024-cü ilin ikinci rübünə qədər inflyasiya davam edəcək. Sadəcə olaraq inflyasiyanın artım tempi azalacaq. Mənim fikrimcə, artıq növbəti ilin ikinci rübündən stabilləşməni müşahidə edə biləcəyik".

***Ləman Əlizadə***



***Azərbaycan xalqı ümummilli liderimiz Heydər Əliyevi hər zaman böyük ehtiramla yad edir, Ulu Öndərin əziz xatirəsini daim uca tutur. 19 ildir ki, cismən aramızda olmasa da, Ulu Öndərimizin müəyyənləşdirdiyi siyasət daim ölkəmizə və xalqımıza işıqlı yol göstərir. 2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Zaman ötdükcə Onun Azərbaycanın inkişafı naminə gördüyü işlərin miqyası daha dərindən dərk olunur.***



# Hər bir uğurumuz Heydər Əliyev siyasətinin təntənəsidir

## *İLHAM ƏLİYEV: "Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq"*

Prezident İlham Əliyev 29 sentyabr 2022-ci il tarixində "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" imzaladığı Sərəncamda deyilir: "Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir".

### 1969-CU İL - AZƏRBAYCANIN YENİ TARİXİNDƏ DÖNÜŞ İLİ

Qeyd edək ki, Heydər Əliyev dühasının mənalı ömür yolunun hər anı, hər səhifəsi bugünkü və gələcək nəsillərə nümunə olacaq canlı və unudulmaz tarixdir. Hakimiyyətdə olduğu 35 il müddətində ulu öndər xalqının tarixi mənafeyi uğrunda əzmlə mübarizə aparmış, ictimai-siyasi proseslərdə daim özünü real güc mərkəzi kimi göstərmişdir. Heydər Əliyevin Azərbaycana rəhbərliyə başlaması, Azərbaycanın isə onun simasında özünə yeni fəaliyyət metodlarına malik rəhbər tapması hər ikisinin yüksəlişinin, xalqın da xoşbəxtliyinin başlanğıcı oldu! Azərbaycana rəhbərliyə başladığı gündən hər bir vətəndaş, bütövlükdə xalq ona arxa duran, mənafeyini qoruyub müdafiə edən, haqsızlıq və qanunsuzluqla barışmayan böyük qəlbli insanın hakimiyyətə gəldiyini düşünürdü. Hakimiyyətə gəldiyi ilk günlərdən Heydər Əliyevin rəhbərliyi altında respublikada həyata keçirilən genişmiqyaslı islahatlar iqtisadi potensialın formalaşdırılmasına, sosial-mədəni həyatın canlandırılmasına və milli-mənəvi dəyərlərin dirçəldilməsinə yönəldilərək gələcək müstəqilliyin təmin olunması üçün zəmin hazırladı. Ulu öndər Heydər Əliyev sovet Azərbaycanına rəhbərlik etdiyi dövrləri xatırlayarkən deyirdi: "Biz sovet rejimində yaşayırdıq. Məgər biz bu rejimi dəyişə bilərdik? Amma iş ondadır ki, bu rejim altında olsa da sən xalqın, millətin üçün nə edirsən. Əgər bu rejimi dəyişdirə bilmirsənsə, onda onun imkanlarından istifadə edib xalqına kömək göstər. Mən bunu etdim. Azərbaycan o illərdə çox yüksəklərə qalxdı".

Azərbaycan sosial-iqtisadi vəziyyətinə görə SSRİ-nin tərkibində olan 15 respublika sırasında sonuncu yerlərdə qərarlaşırdı. Bütün göstəricilər üzrə belə idi. Amma Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gəldikdən sonra ilk 5 illikdə inkişaf baş verdi. Belə ki, 1970-1982-ci illərdə respublikada 250 yeni müəssisə, istehsalat və sex tikilmiş, neftayırma sənayesi müəssisələri tamamilə yenidən qurulmuş, iri elektron, elektrotexnika, radiotexnika, cihazqayırma sənayesi zavodları inşa olunmuşdur. Nəticədə, göstərilən müddətdə Azərbaycanda sənaye istehsalı 2,7 dəfə artmışdır. 1970-1982-ci illərdə kənd təsərrüfatının məcmu məhsulu 2,6 dəfə çoxalmış, əmək məhsuldarlığı 2,2 dəfə yüksəlmişdir. Əsaslı dövlət vəsaiti qoyuluşunun 1 manat artımı hesabına əlavə olaraq 3,5 manatlıq məhsul alınmışdır. Göstərilən dövrdə milli gəlir 2,6 dəfə çoxalmışdır. Azərbaycan büsbütün yenidən tikilib qurulmuş, kənd və qəsəbələr salınmış, fabrik və zavodlar tikilmiş, yaşayış məntəqələrinin siması tamamilə dəyişmişdir. Yetmişinci illərədək Azərbaycan kəndi əsasən çiy kərpicdən və palçıqdan tikilmiş komalardan ibarət idi. Kəndlinin gəliri az olduğundan güzəranı ağır keçirdi. Kənd təsərrüfatının yüksəlişi bu sahədə inqilabi dəyişiklik yaratdı. Yeni texnika və aqrotexniki qaydaların genişmiqyaslı tətbiqi hesabına əmək məhsuldarlığı və məhsul istehsalı bir neçə dəfə artdı, təsərrüfatların və əməkçilərin gəliri qat-qat çoxaldı. Kəndlinin güzəranı və məişət şəraiti dəyişdi. Azərbaycan kəndi palçıq komalardan qurtularaq simasını dəyişdi. O vaxtdan həyətində minik avtomobili, ikimərtəbəli ağ mişar daşından evi, məişətində hər növ elektrik cihazları olan kəndli ailələri Azərbaycan kəndlisini xarakterizə edən başlıca əlamətə çevrildi. Bu gün elə bir kənd tapılmaz ki, orada Heydər Əliyev dövrünü xatırladan bir neçə "abidə"yə rast gəlinməsin. Ölkə paytaxtı Bakı şəhəri də yeni mikrorayonlar, park və xiyabanlar, küçə və meydanlar hesabına böyüyərək gözəlləşdi. "Gülüstan" və "Respublika" sarayları, Prezident sarayı və Milli Məclisin binası, "Moskva", "Azərbaycan", "Abşeron" mehmanxanaları, Əl oyunları sarayı və Olimpiya İdman Kompleksi, metro stansiyaları və digərləri həmin dövrdə tikilmiş, N.Nərimanova, C.Cabbarlıya, Nəsimiyə, H.Cavidə və digər görkəmli həmvətənlərimizə abidələr qoyulmuş, onlarla ədəbiyyat və incəsənət xadiminə, sənətkara fəxri adlar, dövlət mükafatları verilmişdir.

### 15 İYUN, 1993-CÜ İL - BÖYÜK XİLASKARLIQ QAYIDIŞI

XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsəti əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. Ölkədə hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü. Vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa hədəfə aldı. Beləliklə, 1991-1993-cü illər ölkəmizin müasir tarixində hərc-mərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xatırlanır. Bütün bunlar isə həmin dövrdə yeni yaradılmış müstəqil dövlətə liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət vermək, gələcəyi görmək imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslərin rəhbərlik etməsinə görə baş verirdi. Hadisələri düzgün qiymətləndirə bilməyən ovaxtkı iqtidar əhali arasında gündən-günə nüfuzunu itirir, baş vermiş proseslərdən düzgün nəticə çıxara bilmirdi.Ümummilli lider Heydər Əliyev müstəqilliyimizin həmin mərhələsini belə xarakterizə edirdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı".

Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən davamlı işğalı, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin gündən-günə ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi. Cəmiyyətin bütün təbəqələri əmin idi ki, müstəqilliyini yenicə bərpa etmiş ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir.. Beləliklə, 1993-cü il iyunun 9-da ulu öndər Heydər Əliyev xalqın çağırışına səs verərək Bakıya qayıtdı və Azərbaycan Xalq Cümhuriyyətinin taleyindən daha dəhşətli hadisələrin gözlənildiyi ölkəmizi bəlalardan, müsibətlərdən xilas etdi. Həmin gün, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu, böyük qurtuluşa doğru mühüm addım atıldı. Xalqımızı nicata aparan yol bilavasitə həmin gündən başlandı.1993-cü ildən ömrünün sonuna qədər, yəni, 2003-cü ilədək ömrünü müstəqilliyimizin əbədiliyinə, öz xalqının və Vətəninin inkişafına sərf edən Ulu Öndər Azərbaycanı dünyaya tanıtdırdı. Xalqımızın xoşbəxt, firavan gələcəyi üçün etibarlı bünövrə yaradaraq, dövlət idarəçilik mexanizmini formalaşdırdı. Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamaqla dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir. Müasir müstəqil Azərbaycan dövlətinin tərəqqisi Heydər Əliyev ideyalarının təntənəsidir

### BUGÜNKÜ AZƏRBAYCAN HEYDƏR ƏLİYEVİN GÖRMƏK İSTƏDİYİ AZƏRBAYCANDIR

Ötən illər ərzində Azərbaycan böyük inkişaf yolu keçib. Ölkəmizin inkişaf strategiyası məhz ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilib. Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur. Bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi Azərbaycandır. Qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Bu günün fövqündən baxanda Azərbaycanın gələcəyi daha işıqlı və firavan görünür. Çünki müstəqil Azərbaycanın idarəçilik sükanı ulu öndər Heydər Əliyevin siyasi varisi Prezident İlham Əliyevin əlindədir. Dahi şəxsiyyətin bu günümüz və gələcəyimiz üçün səsləndirdiyi fikirlərə, tezislərə diqqət yetirdikdə onun torpaq, Vətən sevgisinin nə qədər böyük olduğunu görürük. Ulu Öndərin suverenliyimizi daimi yaşatmaq, dövlət müstəqilliyimizi əbədi etmək üçün harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlıya müqəddəs Azərbaycan qayəsi ətrafında əməl və əqidə birliyinə, sarsılmaz həmrəyliyə çağırışlar etməsi də bu sevgisindən qaynaqlanırdı. O, müstəqillik yollarında ilk addımlarını atan dövlətin qarşısında dayanan vəzifələrdən bəhs edərkən bildirirdi ki, onun beynəlxalq aləmdə özünü təsdiqləməsi üçün xarici əlaqələrimizi gücləndirməyə böyük ehtiyac var.

### ATA VƏSİYYƏTİ - OĞUL HESABATI

Bütün mənalı həyatını ölkəmizin tərəqqisinə, insanların rifahının yaxşılaşdırılmasına həsr edən Ümummilli Liderimizin ən böyük arzusu işğal olunmuş torpaqlarımızın azad edilməsi idi. O, bunun üçün var qüvvəsi ilə çalışırdı. Doğma ocaqlarından didərgin düşmüş qaçqın və məcburi köçkünlərin bütün problemlərinin həll olunması üçün bütün imkanları səfərbər etmişdir. Və onun ən böyük xidmətlərindən biri də 1994-cü ildə atəşkəslə bağlı sənədin imzalanması olmuşdur. Ölkədə cənab İlham Əliyev tərəfindən aparılan islahatlar və quruculuq işləri, xüsusilə də son 19 ildə həyata keçirilən güclü dövlət, güclü ordu strategiyası, çox vektorlu siyasi münasibətlər, regional və beynəlxalq əhəmiyyətli layihələr torpaqlarımızın işğaldan azad olmasının səbəbidir.

Ümummilli lider Heydər Əliyevin müdrik, uzaqgörən və çevik daxili və xarici siyasətini özünün siyasi kursu elan etmiş, Heydər Əliyev idarəçilik məktəbinin layiqli davamçısı hesab edilən İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənablarının dediyi kimi: "Dərsini verdik. Öz bayrağımızı ucaltdıq Şuşada və bütün başqa şəhər və rayonlarımızda. Hər kəs gücümüzü gördü. Hər kəs qüdrətimizi gördü, iradəmizi gördü. Bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi. Bu, birlik yumruğudur, bu, güc yumruğudur. Bundan sonra Azərbaycan yalnız inkişaf, tərəqqi yolu ilə gedəcək. Bundan sonra da biz ordu quruculuğu işində əməli addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik. Bütün göstərişlər verildi. İradəmiz də var, təcrübəmiz də var - əvəzolunmaz təcrübə. İndi bütün ölkələr bu Vətən müharibəsinin təcrübəsini öyrənirlər. Vəsaitimiz də var. Xalq-iqtidar birliyimiz də var. Biz göstərmişik ki, böyük xalqıq, qürurlu xalqıq. Düşməni yerə vurduq. Düşmənin belini qırdıq, məhv etdik. Bu, tarixi Qələbədir. Bu Qələbə Azərbaycan tarixində əbədi qalacaq, şanlı Qələbə kimi!"

***RƏFİQƏ KAMALQIZI***



# Azərbaycan - sahibkarlığın inkişafı üçün ən çox islahat aparan ölkə!

*Azərbaycan xalqının təkidli tələbi ilə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışından sonra müstəqilliyini yenidən bərpa edən ölkəmizdə siyasi və makroiqtisadi sabitliyə nail olundu, iqtisadi inkişafın lokomotivi olan sahibkarlar sinfinin formalaşması üçün real hüquqi baza yaradıldı, özəl sektora dövlət tərəfindən hərtərəfli dəstək göstərilməsi tədbirlərinin həyata keçirilməsinə başlanıldı.*

"Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur", deyən Ulu Öndər Heydər Əliyevin ölkənin gələcək iqtisadi inkişafının məhz özəl sektorla bağlı olduğunu diqqətə çatdırması yaddaşlardan silinən deyil və bu gün həmin straeji yol cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu baxımdan da kiçik və orta sahibkarlığın inkişafının iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevrilməsi heç də təsadüfi hesab olunmur.

Təsadüfi deyil ki, Azərbaycan biznes mühitinin əlverişliliyi, sahibkarların rahat işləməsi üçün ən çox islahatlar aparan ölkələrdən sayılır. Ona görə ölkəmiz ən çox islahatlar aparan ölkələrdən sayılır ki, post-neft iqtisadiyyatının qurulması, idxaldan asılılığın azaldılması, ölkənin ixrac potensialının yüksəldilməsi üçün rəqabətqabiliyyətli mal və məhsulların istehsal olunması məqsədilə hökumətimiz sahibkarlar üçün böyük imkanlar yaradıb. Ölkədə qeyri-neft sektorunun, xüsusilə də regionlarda kiçik və orta sahibkarlığın inkişafı istiqamətində çox vacib, mühüm işlər görülüb və bu işlər uğurla davam etdirilməkdədir. Sözsüz ki, bazar iqtisadiyyatı yolunu seçmiş istənilən dövlətin müstəqil yaşaması və inkişafı prosesində orta təbəqənin, iqtisadi inkişaf və sabitliyin təminatçısı sayılan sahibkarlar sinfinin rolu müstəsnadır. Elə bu reallığı nəzərə alan ölkə Prezidenti cənab İlham Əliyev milli iqtisadi inkişaf modelinin reallaşdırılmasında özəl sektorun həlledici rolunu daim önə çəkir, güclü sahibkarlar təbəqəsinin formalaşmasına, onların cəmiyyətdəki mövqelərinin güclənməsinə daim əlverişli şərait yaradır. "Mən çalışacağam ki, sizə maksimum dərəcədə sərbəstlik verilsin, maksimum dərəcədə imkanlar yaradılsın ki, siz sərbəst, azad, rahat şəkildə öz fəaliyyətinizi davam etdirəsiniz", deyən cənab Prezident İlham Əliyev yerli sahibkarlara müraciət edərkən öz çıxışlarında bildirib və bu da onu göstərir ki, sahibkarlığın inkişafına güclü təkan verən məhz Azərbaycan Prezidentinin rəhbərliyi ilə iqtisadiyyatın bütün sahələrini əhatə edən islahatlara geniş yer verilir. Ölkə başçımızın rəhbərliyi ilə fasiləsiz şəkildə aparılan islahatlar bu gün də uğurla davam etdirilir və sahibkarlığın daha da inkişaf etdiriləcəyinə ümidləri bir qədər də artırır.

Sayca 3-cü olan "Bakı KOB evi"nin açılışı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin açılışda iştirakı sahibkarlığın daha da inkişaf etdirilməsi istiqamətində islahatların uğurla davam etdirildiyinin və sahibkarlığa dövlətin, dövlət başçısının ayırdığı diqqətin təzahürüdür. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədovun paytaxtın Nərimanov rayonunda yerləşən "Bakı KOB evi" barədə dövlətimizin başçısına verdiyi məlumatlar təsdiq edir ki, həqiqətən də sahibkarlar üçün dövlətimiz çox əlverişli şərait yaradır və onların fəaliyyətinə xüsusi diqqət və qayğı ilə yanaşır.



Ölkə başçısına verilən məlumatlarda qeyd olunur ki, sayca 3-cü olan "Bakı KOB evi"nin ümumi sahəsi 11 min 262 kvadratmetrdir və bu üçmərtəbəli binanın ilk iki mərtəbəsi sahibkarlara xidmət göstərilməsi üçün, üçüncü mərtəbəsi isə işçi heyəti üçün nəzərdə tutulub. Elə yaradılan bu şərait məhz gün ərzində beş min sahibkara xidmət göstərmək potensialının olmasından xəbər verir. Üstəlik, binada yaradılmış görüş, təlim, startap, mediasiya otaqları və konfrans zalının da sahibkarların xidmətində olacağı diqqət çəkən məqamlardır. Bu məqamlar öz növbəsində sahibkarlara xidmətin daha üstün və müasir səviyyədə göstəriləcəyinə əminliyi daha da artırır.

Həmçinin qeyd olunur ki, "Bakı KOB evi"ndə sahibkarlara 29 dövlət qurumu tərəfindən 150-dən çox, 20 özəl qurum tərəfindən isə 100-dən çox adda xidmətlər göstəriləcək. Bildirilir ki, sahibkarlar fəaliyyət üçün zəruri olan biznesin qeydiyyatı, lisenziya və icazələrin alınması, biznes-planın hazırlanması, güzəştli maliyyə vəsaitlərinə çıxış, vergi, gömrük, kommunal xidmətlərə qoşulma, bank, sığorta və digər məsələlərlə bağlı "Bakı KOB evi"nə müraciət edə bilərlər. Bununla yanaşı, "Bakı KOB evi"ndə yaradılmış Beynəlxalq Ticarət, İnkişaf və Logistika Zonasında gömrük və idxal-ixrac əməliyyatları ilə bağlı geniş spektrli xidmətlər də təqdim ediləcək. Deməli, bütün bunlar təsdiq edir ki, sahibkarlar üçün geniş spektrdə xidmət nəzərdə tutulub və bu, onlara olan qayğının, sahibkarlıq fəaliyyətinə olan dəstəyin bariz nümunəsi olaraq qəbul edilir.



Xatırladaq ki, KOB evləri sahibkarlara dövlət və biznes xidmətlərinin mərkəzləşdirilmiş qaydada təqdim edildiyi vahid məkandır. Bu elə bir məkandır ki, burada xidmətlər operativlik, şəffaflıq, nəzakətlilik və rahatlıq prinsipləri əsasında həyata keçirilir. Deməli, bu məkanlar sahibkarların vaxtına qənaət edilməsi, məsələlərinin daha sürətlə, az xərclə, özü də şəffaflıq və rahatlıqlar nəzərə alınaraq həllini tapmasını üçün əvəzsizdir. Daha dəqiq desək, biznes xidmətlərinin bir məkanda toplanması, vaxta və xərclərə qənaət, operativlik KOB evlərinin əsas üstünlükləridir, hansı ki, sahibkarlar tərəfindən bu məqamlar olduqca yüksək qiymətləndirilir. Başqa cür qiymətləndirilməsi mümkün də deyil, çünki sahibkarlar başa düşürlər ki, yaradılan şərait onlar üçündür və fəaliyyətlərinin daha asan, daha şəffaf, daha uğurlu olmasını təmin edir. Əbəs yerə deyil ki, sahibkarların KOB evlərinin xidmətlərindən məmnunluq göstəricisi 98 faizdir.

Bilirik ki, özəl sektorun inkişafı sahəsində həyata keçirilən sistemli tədbirlərin davamı olaraq, Azərbaycan Prezidentinin 2017-ci il 28 dekabr tarixli Fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) yaradılıb. Yaradılan Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), özəl sektorun daha sürətli inkişafı məqsədi ilə yaradılıb. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycanın davamlı iqtisadi inkişafının təmin edilməsində sahibkarlığın xüsusilə kiçik və orta biznesin rolunun artırılması cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin prioritet istiqamətlərindəndir və birbaşa ölkə başçısının diqqət və qayğısı ilə davamlı olaraq əhatə olunubdur.

Qeyd olunduğu kimi KOBİA tərəfindən sahibkarlara müxtəlif xidmətlər göstərilir. Bu xidmətlərə eyni zamanda, informasiya, məsləhət, təlim-tədris, maraqların müdafiəsi, bazarlara və maliyyə resurslarına çıxışın yaxşılaşdırılması, dövlət və özəl qurumlarla əlaqələndirmə və digər istiqamətlərdə dəstək və xidmətlər də aiddir. KOBİA-nın ölkənin müxtəlif şəhər və rayonlarını əhatə edən geniş infrastruktur şəbəkəsi, yəni, KOB dostları, KOB inkişaf mərkəzləri və KOB evləri vasitəsilə bu dəstək və xidmətlər reallaşdırılır. Xüsusi olaraq diqqətə çatdıraq ki, KOB inkişaf mərkəzləri KOB-ların biznes biliklərini artırmaq üçün ödənişsiz olaraq informasiya, məsləhət, təlim və biznes-planın hazırlanması xidmətlərini təklif edir. KOB-ların ölkənin regionlarında maraqlarının müdafiəsi, eləcə də lazımi dəstək və xidmətlərə çıxış 38 şəhər və rayonda fəaliyyət göstərən "KOB dostu" şəbəkəsi vasitəsilə təmin edilir.

Göründüyü kimi, sadalanan məqamlar birbaşa sahibkarlar üçün geniş imkanlar deməkdir və onların fəaliyyətinin həm asanlaşdırılması, sadələşdirilməsi, həm də bu fəaliyyət sahəsinə dəstəyin göstərilməsi üçün əvəzsizdir. Belə bir dəstək, qayğı və diqqət isə sözsüz ki, səbəbsiz və mənasız deyil. Məqsəd ölkədə sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasını təmin etmək, sahibkarların fəaliyyətini asanlaşdırmaq, nəticə də kiçik və orta biznesi daha da, özü də sürətlə inkişaf etdirməkdir. Bu məqsəd uğrunda görülən işlər isə öz müsbət nəticələrini artıq bir çox istiqamətlərdə verməkdədir. Sahibkarlığa dövlət dəstəyi tədbirləri sahibkarlıq subyektlərinin sayının son illər ərzində dəfələrlə artmasına gətirib çıxarıb. Bu da öz növbəsində özəl sektorda iş yerlərinin əsaslı şəkildə artması ilə nəticələnib, işsizlik səviyyəsinin azalmasına, məşğulluq səviyyəsinin artmasına müsbət təsir edib. Eyni zamanda, kiçik və orta sahibkarlığa göstərilən diqqət və qayğı sayəsində bölgələrin siması da büsbütün dəyişib, daha da yaxşılaşıb.

Regionlarda sənayenin, aqrar sektorun inkişafı artıq özünü göstərməkdədir. Sənaye parkları, aqroparklar, fabrik və zavodların açılışı vaxtilə işsizlik səbəbindən paytaxta üz tutan insanları yenidən regionlara qayıtması, hazırda həmin müəssisələrdə yüzlərlə insanların çalışması ilə nəticələnib.

Neft sektorundan asılılığın minimuma endirilməsi baxımından qeyri-neft sektoruna ayrılan diqqət olduqca vacib məqam hesab olunur. Qeyri-neft sektorunun, ələlxüsus kənd təsərrüfatının inkişafı üçün sahibkarlara dövlətimiz tərəfindən subsidiyaların, güzəştlərin verildiyi də günümüzün reallığıdır. İstər aqrar sahədə, əkinçilikdə, eləcə də heyvandarlıq sahəsində çalışan sahibkarlar dövlət tərəfindən kifayət qədər qayğı ilə əhatə olunub və daim dəstək almaqdadırlar. Bunun sayəsində də həmin sahədə çalışan sahibkarlıq subyektləri durmadan inkişaf etməkdədir ki, bu da öz növbəsində məhsul bolluğunun yaranması deməkdir.

Daxili bazarların ölkə daxilində istehsal olunan məhsullarla təmin edilməsi ilk növbədə idxaldan asılılığı da minimuma endirir ki, bu da məhsulların qiymətlərinin süni şəkildə artırılmasının qarşısını alır, əhalinin alıcılıq qabiliyyətinin artmasını təmin edir. Bunun üçün isə ölkə daxilində istehsal olunan məhsullarla daxili bazarları təmin edən sahibkarların fəaliyyətinin artırılması gərəkir. Əgər sahibkarlar kifayət qədər məhsul istehsal edərək daxili bazarları təmin edərlərsə, o zaman xaricdən məhsul gətirən işbazlara ehtiyac qalmaz və onlar süni qiymət artımı yarada bilməzlər. Deməli, sahibkarların fəaliyyətinə dövlətimizin dəstəyi əbəs yerə deyil, eyni zamanda ölkə vətəndaşlarının rifahının daha da yaxşılaşdırılmasına hesablanıb. Bu həm işgüzarlıq mühiti, həm məşğulluq məsələləri, həm də vətəndaşların rifah halının yaxşılaşdırılması baxımından əvəzsizdir. Elə o baxımdan da dövlətimiz, dövlət başçımız sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına diqqət və qayğını günü-gündən artırır, KOB evlərinin açılışı, istifadəyə verilməsi də bu mənada yüksək qiymətləndirilir.

**_İnam Hacıyev_**

# Azərbaycan Prezidentinin telekanallara müsahibəsi Türkiyə mediasında geniş işıqlandırılıb


TRT HABER • Gündem Türkiye Dünya Ekonomi Spor Yaşam Çocuk Özel Haber Diğer

Aliyev: Azerbaycan'da milli savunma sanayisinin yeni dönemi başlıyor

[Fotoğraf: İHA (Arşiv)]

Azerbaycan Cumhurbaşkanı Aliyev, ülkesinde milli savunma sanayisinin yeni döneminin başladığını belirterek "İlk olarak kendi ihtiyacımızı karşılayacağız sonra ise ihraç edeceğiz. Rusya piyasadan çıktığı için dünya silah piyasasında boşluk oluştu. Biz bu piyasası doldurmalıyız" dedi.

Azerbaycan Cumhurbaşkanı İlham Aliyev, Azerbaycan'ın ulusal kanallarına verdiği röportajda, gündeme ilişkin değerlendirmelerde bulundu.

2. Karabağ Savaşı'nın sonuçlarının ve Azerbaycan'ın elde ettiği zaferin dünya

Son Haberler
12:59 Havalimanlarında rekor: Yolcu sayısı 182 milyonu aştı
12:48 Uganda'da Ebola salgını bitti
12:45 Eski Kuzey Kore Dışişleri Bakanı Ri'nin idam edildiği ileri sürüldü
12:45 Polonya ABD'den 'Almanya' konusunda yardım istedi
12:41 Yılmaz: Önümüzdeki hafta gündeme alınmasında mutabakata vardık

Dünya Son Haberler


Aliyev, Azerbaycan'da milli savunma sanayisinin yeni döneminin başladığını açıkladı

Azerbaycan Cumhurbaşkanı İlham Aliyev, "Türkiye ve İsrail şirketleriyle yeni anlaşmalar yaptık. Azerbaycan'da milli savunma sanayisinin yeni dönemi başlıyor. İlk olarak kendi ihtiyacımızı karşılayacağız sonra ise ihraç edeceğiz." dedi.


İHA

Azerbaycan Cumhurbaşkanı Aliyev: 'Ermeni tarafı müzakere sürecini aksatıyor'


TRT AVAZ

Aliyev, Azerbaycan'da milli savunma sanayisinin yeni döneminin başladığını açıkladı

Azerbaycan Cumhurbaşkanı İlham Aliyev, ülkesinde milli savunma sanayisinin yeni döneminin başladığını belirterek "İlk olarak kendi ihtiyacımızı karşılayacağız sonra ise ihraç edeceğiz. Rusya piyasadan çıktığı için dünya silah piyasasında boşluk oluştu. Biz bu piyasası doldurmalıyız" dedi.


akit

Savunma sanayisinde yeni dönem başlatan kardeş ülke duyurdu! 'Türkiye ile anlaşmalar yaptık'

KARDEŞ ÜLKE DUYURDU! TÜRKİYE İLE ANLAŞMALAR YAPTIK

*Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsi Türkiyənin aparıcı kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.*

AZƏRTAC xəbər verir ki, qardaş ölkə mediası dövlətimizin başçısının müsahibəsindəki mühüm məqamları, o cümlədən Azərbaycan inkişaf istiqamətləri, regional proseslər, perspektivdə olan yeni layihələr, dünyadakı ikili standartlar, Ermənistanla münasibətlər və sair mövzulara dair fikir və mülahizələrini fərqli başlıqlarla dünya ictimaiyyətinin diqqətinə təqdim edib.

Anadolu və İHA xəbər agentlikləri, "TRT Haber", "TRT Avaz" və digər telekanallar, "Yeni Akit", "Milliyet" və sair qəzetlər məlumat verir ki, Prezident İlham Əliyev böyük inamla Azərbaycanın milli müdafiə sənayesini müasir dövrün standartlarına yüksəltməkdə qərarlıdır.

# "Erməni sakinlərin "blokada"ya alınması barədə iddiaları tamamilə əsassızdır"

*Xarici işlər naziri Ceyhun Bayramovun ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfrid ilə telefon danışığı olub*




"Postmünaqişə dövründə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması ilə bağlı Azərbaycan tərəfinin bir sıra konstruktiv təşəbbüslərinə baxmayaraq, Ermənistan tərəfindən prosesə davamlı əsasda müxtəlif təxribatlarla maneçilik törədilib."

Bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfrid ilə telefon danışığında bildirib.

Nazir Ermənistan tərəfindən 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanat üzrə öhdəliklərin kobud şəkildə pozulmasına, Laçın yolundan hərbi təxribatlar, o cümlədən minaların qanunsuz daşınması, yerləşdirilməsi, qeyri-qanuni iqtisadi fəaliyyət və təbii sərvətlərin talanması, üçüncü ölkə vətəndaşlarının qanunsuz keçidi məqsədilə istifadə olunması kimi faktları diqqətə çatdırıb. "Laçın yolunun Azərbaycan tərəfindən bağlanması nəticəsində erməni sakinlərin "blokada"ya alınması, bölgədə "humanitar fəlakət" yaranması barədə iddiaları tamamilə əsassızdır."

Nazir ərazilərimizin 30 ilə yaxın davam etmiş işğalı zamanı və son dövrlər intensivləşmiş qeyri-qanuni fəaliyyətlərə qarşı Azərbaycan vətəndaş cəmiyyətinin Laçın yolunda etiraz aksiyasının haqlı tələblərinin hələ də yerinə yetirilmədiyini qeyd edib.

Həmçinin gündəlik əsasda çox sayda Beynəlxalq Qızıl Xaç Komitəsi, Rusiya sülhməramlı kontingenti və digər humanitar məqsədli nəqliyyat vasitələrinin yoldan istifadə etdiyi barədə məlumat verilib.

Erməni sakinlərin yoldan istifadə etməklə sərbəst hərəkətinə heç bir maneə olmadığı, ehtiyac olacağı təqdirdə ermənilərə yardım göstərmək niyyətləri barədə Azərbaycan tərəfinin bəyanatlarına baxmayaraq, yerli ermənilərin rəhbərləri kimi özlərini təqdim edən şəxslərin əhalinin yoldan istifadəsinə qarşı olması faktları diqqətə çatdırılıb.

Telefon danışığı zamanı, həmçinin iki ölkə arasında əməkdaşlıq gündəliyi və bölgədə cari vəziyyət müzakirə edilib. Eyni zamanda, Azərbaycan tərəfinin dialoqa sadiqliyi və bölgədə sülhün bərqərar olması istiqamətində səyləri artırmağa daim hazır olduğu vurğulanıb.

# "Azərbaycanlıların öz dədə-baba torpaqlarına sahib çıxmaq haqları var"

***"Azərbaycan öz dövlət müstəqilliyini itirdiyi dövrlərdə onun torpaqları digər imperiyalar arasında bölüşdürülmüşdü. Rusiya və İran arasında razılaşmaya görə isə İrandan, sonra isə Osmanlıdan çox sayda erməni əhalisi tarixi Azərbaycan torpaqlarına köçürülmüşdür. Yenə də dövlət müstəqilliyimizin olmaması səbəbindən Azərbaycan xalqının milli maraqları olmamış, ermənilər torpaqlarımıza sahib olmuş, azərbaycanlılar dövlət idarəetməsinə buraxılmamış və sonradan isə ermənilər Azərbaycan torpağında özlərinin dövlətini yarada bilmişdilər". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Aydın Mirzəzadə bildirib.***




Onun sözlərinə görə, bu azmış kimi hətta Ermənistan adlandırılan respublikadan azərbaycanlılar zaman-zaman sıxışdırılıb çıxarılmış, ötən əsrin 90-cı ilində isə orada bir nəfər də olsun azərbaycanlı qalmamışdır: "Eyni zamanda paralel olaraq Azərbaycan toponimləri dəyişdirilmiş, Qərbi Azərbaycan adlandırılan ərazidə Azərbaycan izinin qalmaması üçün erməni millətçiləri tərəfindən bütün çirkin addımlar atılmışdır. Ancaq bu torpaqlar tarixi Azərbaycan torpaqlarıdır. Azərbaycanlıların ora qayıtmaq, orada yaşamaq, öz dədə-baba torpaqlarına sahib çıxmaq haqları var.

Cənab Prezidentin ötən ilin sonunda Qərbi Azərbaycan İcması ilə görüşündə də bu məsələlər bir daha müzakirə edildi. Beynəlxalq hüquqlar var və Azərbaycanlılar öz dədə-baba torpaqlarında yaşamaq istəyirlər. Bu istiqamətdə dövlətimiz mümkün olan addımları atır. Beynəlxalq ictimaiyyət də Azərbaycanın öz torpaqlarını itirməsi barədə məlumatlandırılmalıdır. Bunun üçün də bizim gənclərimiz tariximizi yaxşı mənimsəməlidirlər".

**Səbinə Hüseynli**

# İranın "sözdə bir, əməldə başqa" oyunbazlığı: nə istəyirlər?




## *Yaxud, biz "xub" deyirik, lakin*









***Bugünlərdə İranın XİN sözçüsü Naser Kənani Azərbaycanla münasibətlər barədə ağızdolusu bəyanat verib və həmin bəyanatında bildirib ki, ölkəsinin Azərbaycanla əlaqələri müsbət şəkildə qurulur və s. Necə deyərlər, xub! Amma cənab Naser Kənani bu barədə danışarkən çox yəqin ki, təmsil olunduğu ölkəsinin ali dini rəhbərliyindən tutmuş digər dövlət rəsmilərinə, eləcə də parlamentarilərinə qədər Azərbaycana qarşı gah hədə, gah da başqa üsullarla "barmaq silkələmələrini" unudub.***

Bütün bunlara rəğmən, Kənani deyib ki, bəzi anlaşılmazlıqlara baxmayaraq, isti münasibətlər qalmaqdadır və qonşuluq, sərhədlər, tarix, ümumi maraqlar (iqtisadi və siyasi) səbəbindən hər iki ölkə öz arasında yeni əməkdaşlıq sahələrini müəyyənləşdirməyə borcludur (?!-R.R.) "Və əgər anlaşılmazlıq varsa, bunlar diplomatik danışıqlar yolu ilə həll olunmalıdır", deyən iranlı XİN sözçüsü Azərbaycan tərəfindən İranla bağlı müsbət açıqlamaların şahidi olacağına ümid etdiyini bildirib. Bu da olsun xub! Lakin...

### Tehran Universitetində separatçı Əlikram Hümbətova həsr edilmiş anım mərasimi (?!)

Lakin iranlı diplomat həmin ifadələrini bəyanat şəklində irəli sürərkən məhz onun ölkəsində açıq-aydın olaraq Azərbaycana qarşı separatçılıq toxumlarına səbəb olan bir şəxsin - artıq o biri dünyada bəd əməllərinə görə cavab verən Əlikram Hümbətovun şəninə anım mərasimi keçirilib!

Bəli, yanılmadınız, 90-cı illərdə yenə də İranın xüsusi xidmət orqanlarının təşkilatçılığı ilə qondarma "Talış Muğan Respublikası" elan edən, Azərbaycanın cənub bölgələrində separatçılıq toxumları səpən, həmin cinayət əməlinə görə həbs olunan, sonradan isə azadlığa buraxılaraq sürgün edilən, dəfələrlə (!!!) işğalçı Ermənistanda "konfranslar", "seminarlar" keçirən, erməni xüsusi xidmət orqanları əməkdaşlıq göstərən, beləliklə, Azərbaycanda bir-biri ilə qardaş olan azsaylı millətlər arasında bölücülük siyasətini yürütməyə cəhdlər göstərən Əlikram Hümbətovun anım mərasimi!

Mərasim isə Tehran Universitetində baş tutub. Təkcə bu faktın özü İran hökumətinun Azərbaycan dövlətinə və xalqına qarşı daha bir təxribat xarakterli addıma əl atdığını göstərir. Halbuki bənzər faktlar kifayət qədərdir!

Yeri gəlmişkən, illərdir Azərbaycan əleyhinə qatı düşmən mövqeyi sərgiləyən "Bultan News" xəbər agentliyi qeyd edir ki, Əlikram Hümbətovun yaratdığı adıçəkilən qondarma qurum bir neçə ay yaşayıb və sonda "Bakı rejimi" (???!!!-R.R.) tərəfindən ləğv edilib", deyə adıçəkilən separatçı nəşr yazıb.

Daha bir xatırlatmanı da edək ki, mərasimdə qondarma "Milli Talış Hərəkatının" informasiya xidmətinin rəhbəri Zabil Məhərrəmov fəxri qonaq qismində çıxış edib. Və bu da son deyil!

Tehranda general Qasım Süleymaniyə həsr olunmuş konfransda "Hüseyniyyun" terror qruplaşmasının başçısı Toğrul İbrahimbəylinin anası çıxış edərək Azərbaycanın dövlət quruluşu əleyhinə fikirlər səsləndirib

Cənab Kənani davamlı olaraq Azərbaycandakı çağdaş və dünyəvi, eləcə də müasir dövlət quruluşunun dəyişdirilərək özlərinə uyğun olan teokratik, mollakrat - öz dilləri ilə desək "kərimə" dövləti qurmaq üçün rəsmi Tehran rejiminin kəşfiyyat orqanları tərəfindən "Qum tələbələri" adı altında hazırlatdığı "Hüseyniyyun" terror təşkilatının fəaliyyəti barəsində nəyə görə danışmır? Bəlkə xəbəriniz yoxdur? Yoxdursa, biz həmin məlumatı əlahəzrət faktlara əsaslanaraq verə bilərik.

Belə ki, bir neçə gün əvvəl Tehranda "General Qasım Süleymaninin məktəbinə həsr olunmuş birinci beynəlxalq konfrans" keçirilib. Tədbirin xüsusiyyəti ondan ibarət olub ki, konfransda qatı anti-Azərbaycan mövqeyi ilə tanınan "Hüseyniyyun" terror qruplaşmasının başçısı Tohid İbrahimbəylinin anası Südabə İbrahimbəyli iştirak və çıxış edib, Azərbaycan əleyhinə fikirləri ilə konfrans iştirakçıları tərəfindən alşıqlanıb. Və bütün bunlardan sonra "Azərbaycan tərəfindən İranla bağlı müsbət açıqlamaların şahidi olacağına ümid etdiyini" deyən İranın XİN sözçüsü bu fakt haqqında nə deyə bilər?!

İranın rəsmi İSNA agentliyi Azərbaycanın ərazi bütövlüyünə qarşı informasiyalar yayır!

Bu gün Tehran rejimi yalnız yuxarıda qeyd edilən faktlarla deyil, həm də Azərbaycanın ərazilərinə, faydalı qazıntılarına və s. iqtisadi xarakterli maraqlarına qarşı qıyqacı baxır. Ona görə də növbəti faktı təqdim etməyi zəruri bilirik. Bu gün Laçın yolu üzərində keçirilən ekoloji aksiyanın məqsədi və məramı məlumdur və İran da yaxşı bilir ki, Ermənistan Azərbaycanın ərazilərini işğal altında saxladığı dövrlərdə, məhz iranlı biznesmenlər erməni işğalçıları ilə birgə torpaqlarımızın çapılıb-talanmasında, ekologiyamıza, flora və faunamıza qarşı terrorun törədilməsində, dini və mədəni irsimizin təhqir olunmasında xüsusi canfəşanlıq göstəriblər.

Bu gün də həmin baxışlar eynidir və əllərində imkan olardısa yenidən həmin bəd əməllərini həyata keçirərdilər. Misal üçün, İranın rəsmi İSNA agentliyi yazır. SİTAT: "Azərbaycan "Dağlıq Qarabağda" (nədənsə iranlı siyasilər və KİV-ləri Azərbaycanın Qarabağ iqtisadi rayonu adını yazmaqdan çəkinirlər və olmayan bir yerin adını təkrarlayırlar-R.R.) qızıl yataqlarını ələ keçirməyə cəhd edir və ona görə də Laçın yolunu bağlayır" (???!!!-R.R.) Cənab Kənani, diqqət yetirirsinizmi? Rəsmi agentliyiniz Qarabağı Azərbaycanın tərkib hissəsi kimi görmür və bu həyasızlığı informasiya şəklində yayır. Əgər siz Azərbaycanla münasibətlərin yaxşılaşmasına ümid etdiyinizi bəyan edirsinizsə, İSNA agentliyinin yaydığı həmin xəbərin təkzib olunmasını tələb edin, edə bilərsinizmi? Əlbəttə ki, yox! Çünki təmsil etdiyiniz Tehran rejimi buna imkan verməz! Ona görə də yaxşısı budur ki, boş-boş çərənləməkdənsə reallığı dərk edin və bilin ki, artıq Azərbaycan 90-cı illərin Azərbaycanı deyil. Azərbaycan dünyaya inteqrasiya etmiş çağdaş, iqtisadi təməllərini möhkəmləndirən, demokratik dəyərləri inkişaf etdirən bir ölkədir və Azərbaycanı bu yoldan heç bir təhdid döndərə bilməz!

***Rövşən RƏSULOV***

**P.S.** *Hə, unutmuşdum az qala. İran son bir ayda Azərbaycanın ərazilərini təhdid edən, guya Bakı üzərindən Qüdsə gedəcəklərini əks etdirən iki video-çarx hazırlayıb və açıq-aşkar işğalçılıq mövqeyində olduğunu dolayısı ilə etiraf edib. Hər halda, Kənani və onun kimi digər iranlı rəsmilər, millət vəkilləri bu faktı da unutmasınlar və nala-mıxa döyəcləməklə hədlərini aşmasınlar, yoxsa zərəri onların özləri çəkməli olarlar.*

SİYASİ RAKURS+ÖZƏL

# Azərbaycan nəqliyyat bazarında ciddi aktordur

## İlham Əliyev: "Zəngəzur dəhlizinin reallaşması tarixi zərurətdir"



***Azərbaycana dünyanın müxtəlif dövətlərinin marağının artması ölkəmizin siyasi gücünə, iqtisadi inkişafına, sülhsevər dövlət olmasına əsaslanır. Müstəqillik tariximizdə ölkəmizin etibarlı tərəfdaş olması, təhlükəsizliyə, sabitliyə verdiyi töhfələrin məntiqi nəticəsidir ki, Azərbaycan beynəlxalq ictimaiyyətin nüfuzlu üzvünə çevrilib və BMT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası kimi beynəlxalq qurumların üzvüdür. Müasir dünyada Azərbaycan artıq ən qlobal mahiyyət kəsb edən və dünyanın marağında olan mövzuların müzakirə olunduğu məkandır. 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı Zəfərdən sonra keçirilən beynəlxalq tədbirlərdə işğaldan azad olunan ərazilərimizin dirçəldilməsi və beynəlxalq nəqliyyat dəhlizlərinin mühüm komponentinə çevrilməsi istiqamətində görülən işlərin təbliğinə geniş yer verilir.***



İkinci Qarabağ müharibəsinin nəticələri bölgə üçün yeni reallıqlar yaratmış və Cənubi Qafqazda deyil, eləcə də dünyada mövqeyini gücləndirən Azərbaycanın beynəlxalq əlaqələri daha da genişlənir. "İkinci Qarabağ müharibəsindən sonra bizim əsas vəzifəmiz şanlı hərbi Qələbəmizi siyasi müstəvidə də təsdiqləmək idi. Biz dərhal işə başladıq. Çünki yaxşı başa düşürdük ki, əgər biz siyasi sahədə bu Qələbəni təsdiqləməsək, bu Qələbəni dünya ictimaiyyətinə qəbul etdirməsək, müəyyən problemlərlə üzləşə bilərik". Bu fikirləri Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibə-



sində bildirib: "Dərhal fəal işə başladıq və hesab edirəm ki, bu gün - artıq müharibədən iki il keçəndən sonra tam əminliklə demək olar ki, müharibənin nəticələri dünya tərəfindən qəbul edilib. Azərbaycanın haqlı olması bir daha təsdiqlənib və müharibənin sonunda yaranmış vəziyyəti biz daha da möhkəmləndirməliyik, yəni, öz mövqelərimizi daha da gücləndirməliyik. Son iki il ərzində həm beynəlxalq əlaqələr müstəvisində, həm ölkə daxilində biz istədiyimizə nail ola bilmişik".

### "AZƏRBAYCAN DÜNYADA ÇOX ETİBARLI VƏ CİDDİ TƏRƏFDAŞ KİMİ TANINIR"

Sülh və təhlükəsizliyin təmin olduğu Azərbaycan istənilən bir layihənin icra uğurla həllini tapır. Əlbəttə ki, təhlükəsizlik və iqtisadi potensial olmadan irimiqyaslı layihələrin icrası mümkün deyil. Regionda yeni reallıqların müəllifi və postmünaqişə mərhələsinin ümumi geosiyasi ab-havasının yenilənməsində əsas söz sahibi olan Azərbaycan regional əməkdaşlıq, sabitlik və inkişaf üçün genişmiqyaslı təşəbbüslər irəli sürür. "Bu gün sirr deyil ki, Azərbaycan dünyada çox etibarlı və ciddi tərəfdaş kimi tanınır. Azərbaycan o ölkələrdəndir ki, öz sözünü açıq deyir, müstəqil siyasət aparır. Əlbəttə ki, bunun təməlində həm hərbi gücümüz, həm də şanlı Qələbəmiz dayanır", - deyə Prezident bildirib.

Yola saldığımız 2022-ci il Azərbaycan üçün uğurlu il oldu. Dövlət başçısının rəhbərliyi ilə bir çox irimiqyaslı layihələr icra olundu. "Keçən ilin əvvəlində də mən Azərbaycan media nümayəndələri ilə görüş zamanı fikir bildirmişdim ki, ümid edirəm 2022-ci ildə qarşıda duran vəzifələr yerinə yetiriləcək və biz bütövlükdə buna nail olduq", - deyə Prezident bildirib.

Azərbaycan dövləti iqtisadi gücünü, qüdrətini daha da artırmaqla yeni hədəfləri gerçəkləşdirərək beynəlxalq və regional əməkdaşlığa sanballı töhfələr verir. Artan iqtisadi güc və beynəlxalq nüfuz Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarının mənzərəsini dəyişdirməyə qadir olan iri layihələrin təşəbbüskarı kimi çıxış etmək imkanı yaratmışdır.

### "ŞİMAL-CƏNUB NƏQLİYYAT DƏHLİZİ ORTA DƏHLİZLƏ RƏQABƏT APARA BİLƏCƏK LAYİHƏDİR"

2022-ci ildə Azərbaycanın nəqliyyat, tranzit və logistika potensialını daha da yüksəltdi. "Biz nəqliyyat sahəsində layihələri uzun illərdir ki, icra edirik. Rusiya-Ukrayna müharibəsi bizim gördüyümüz işlərin əhəmiyyətini daha da artırmışdır", - deyən Prezident bildirib ki, biz bu sahəyə uzun illərdir böyük vəsait qoyuruq, sərmayə qoyuruq. Beləliklə, Azərbaycan ərazisində həm Orta Dəhlizlə bağlı, həm Şimal-Cənub nəqliyyat dəhlizi ilə bağlı bütün əsas işlər yekunlaşıb: "Sadəcə olaraq, biz indi dəmir yolunun bir hissəsini modernləşdiririk, xüsusilə Bakı-Yalama xəttini və ondan sonra Ələt-Astara xəttini də modernləşdirəcəyik. Çünki indiki vəziyyətdə dəmir yolunun imkanları gözlənilən yüklərin həcmi üçün məhduddur. Çünki biz hesab edirik ki, təkcə Şimal-Cənub nəqliyyat dəhlizi ilə Azərbaycan ərazisindən mərhələli qaydada 15 milyon tondan 30 milyon tona qədər yük daşına bilər. Yəni, bu, çox böyük rəqəmdir. Hazırda Azərbaycanın bütün tranzit imkanları bunun kiçik bir faizini təşkil edir. Ona görə Şimal-Cənub nəqliyyat dəhlizi Orta Dəhlizlə rəqabət apara biləcək layihədir".

Qeyd edək ki, Orta Dəhliz 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonrakı illərdə layihə genişlənib və iştirakçıların sayı Ukrayna, Rumıniya və Polşa kimi dövlətlərin hesabına genişlənib. Çin-Qazaxıstan sərhədindən başlayan Orta Dəhliz Mərkəzi Asiya ölkələri və Xəzər dənizi üzərindən, bundan sonra isə Azərbaycan, Gürcüstan, Türkiyə ərazisindən keçərək, Avropaya qədər uzanır. Bu, Avropa ilə Asiyanı birləşdirən ən qısa və rahat marşrutdur. Orta Dəhliz yüklərin Çindən Avropaya və Yaxın Şərqə daşınması üçün təhlükəsiz marşrutlardan sayılır. Böyük İpək yolunun yenidən canlandırılmasına yönələn bu dəhlizin əhəmiyyəti getdikcə artır. Əlverişli coğrafi mövqedə yerləşən Azərbaycan Avropa ilə Asiya arasında beynəlxalq yükdaşımaların daha təhlükəsiz və qısa zamanda həyata keçirilməsi üçün mövcud nəqliyyat-tranzit potensialından geniş şəkildə istifadə etməyi qarşıya mühüm vəzifə kimi qoyub. Bu baxımdan, dəhlizin fəaliyyətinin gücləndirilməsi Qərb və Şərq arasında mühüm körpü rolunu oynayan respublikamız üçün də böyük əhəmiyyət daşıyır.

Orta Dəhliz istiqamətində dövlət tərəfindən ardıcıl siyasət aparılır. "Bildiyiniz kimi, beş il bundan əvvəl Bakı-Tbilisi-Qars dəmir yolunun açılışını etdik. Onu da bildirməliyəm ki, bu layihənin təşəbbüskarı da biz olmuşuq və bu layihənin icrası çox çəkdi. Çünki burada həm siyasi çətinliklər var idi, bəzi böyük Qərb ölkələri bu layihənin əleyhinə çıxış edirdilər və çox ciddi maneələr törədirdilər. Səbəbi də ondan ibarət idi ki, bu, Ermənistanı faktiki olaraq kənarda saxlayan bir layihədir. Yəni, ermənipərəstlik bu layihənin icrasında da özünü göstərdi. Yəni, biz bir neçə il itirdik. Digər problem maliyyə çatışmazlığı idi. Çünki bu layihəyə vəsait qoymaq istəyənlər yox idi. Beynəlxalq maliyyə qurumlarına etdiyimiz müraciətlər cavabsız qalmışdır. Sadəcə olaraq, biz neftdən ilkin gəlirləri əldə edəndən sonra artıq özümüz bu layihəyə böyük vəsait ayırdıq. Bildiyiniz kimi, Gürcüstana 775 milyon dollar kredit verilmişdir və bu layihə reallaşdı. Hazırda biz bu layihənin genişləndirilməsi ilə ciddi məşğuluq. Keçən il artıq göstəriş verilmişdir və büdcədən 100 milyon dollardan çox vəsait ayrılacaq, onun bir hissəsi artıq ayrılıb. Biz bu dəmir yolunun ötürmə qabiliyyətini indiki 1 milyon tondan 5 milyon tona qədər çatdıracağıq",- deyə Prezident bildirib.

**Zümrüd BAYRAMOVA**

# Oyuncaqlar uşaq psixologiyasına necə təsir göstərir?



***"Uşaqların oyuncaqlarla olan münasibətləri onların psixologiyasına təsir edən amillərdən biridir. Uşaq bu fəaliyyət növündə həm fiziki, həm psixoloji baxımdan sürətlə inkişaf edir". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Aytən Ələkbərova deyib.***

Onun sözlərinə görə, oyuncaqlarla arasında qurduğu bağ uşağın fəaliyyətində birbaşa aparıcı mövqeyə malikdir: "Bəzən düşünürük ki, uşağın vaxtından çox hissəsini əyləncəli oyunlarla keçirməsi uşağı inkişaf etdirəcək. Bu isə yanlış düşüncədir".

Psixoloq sözlərinə davam edərək qeyd edib ki, ümumilikdə isə bir uşağın oyuncaqlarla olan münasibəti gələcəkdə onun insanlarla olan münasibətinin təməlini qoyur: "Məsələn, qız uşağının gəlinciyə qarşı davranışları, əslində, onun içində olan analıq duyğusundan irəli gəlir, evcik quranda belə sanki bir qız uşağı öz evini qurur. Eyni zamanda, oğlan uşağının oyuncaq maşınları sürmə şəklindən biz artıq onun yeniyetməliyinin necə olacağını anlaya bilərik. İlk vaxtlardan onun yeniyetməlik problemlərinin öhdəsindən gəlmək üçün oyuncaqlarla, maşınlarla olan münasibətindən gələcək kimliyini üzə çıxarmaq olar. Oyunların içərisində onun gələcəyi üçün uşağa ötürmək istədiyimiz maraqlı nüanslar da var. Bununla belə oyuncaqların həddindən artıq çox olması uşaqlarda davranış pozuntusuna və onlara qarşı səbirsizliyə, qədirbilməzliyə gətirib çıxarır. Odur ki, oyuncaqların uşaqlarımıza yaxşı təsir göstərməsini istəyiriksə, onlar arasındakı münasibəti düzgün dərk etməli və baş verə biləcək natamamlığı vaxtında aradan qaldıra bilməliyik".

***Ləman Əlizadə***



# Xakerlərdən qorunmaq üçün necə ehtiyatlı olmalıyıq?



***Kompüterlər və smartfonlar uzun müddətdir ki, haker hücumlarının hədəfi olub. Onların üzərində saxlanılan məlumatlar: bank kartları, şəxsi yazışmalar, elektron imzalar, şəxsi hesablar və s. asanlıqla onların əlinə keçə bilir.***



## Xakerlərin qurbanına çevrilməmək üçün necə diqqətli olmalıyıq?

SİA mövzu ilə bağlı araşdırma aparıb. Apple dünyanın ən təhlükəsiz telefonlarını istehsal edir və onları sındırmaq demək olar ki, mümkün deyil. Android-in qorunmasını nə qədər sərtləşdirsə də, şəxsi məlumatların sızması halları hələ də çox olur və hamısı da onun əməliyyat sisteminin açıq olmasıdır ki, hakerlər belə halda daha cəld şəkildə telefona müdaxilə edə bilirlər. Bundan əlavə, fərqli saytlar üçün eyni paroldan istifadə edənlər və ya kifayət qədər mürəkkəb olmayan parolla qarşılaşanlar hesablarını itirirlər. Çoxları doğum tarixindən və baş hərflərindən parol yaradır. Hakerlər hesablarına hücum etmək üçün xüsusi parol təxmin edən proqramlardan istifadə edirlər. Şifrə nə qədər qısa və sadə olsa, təcavüzkar onu bir o qədər tez sındıra bilər.

Bəzi sındırmalar cihazın təhlükəsizliyinin olmaması səbəbindən baş versə də, əksəriyyəti insanın özünün günahı ucbatından baş verir. Diqqətsizlik və məlumatlarınızın heç kimə lazım olmadığı fikri təkcə hesabların deyil, həm də pulların itirilməsinə səbəb olur.

## Telefon və kompüterlər viruslara necə tutulur?

Telefonda və ya kompüterdə virusu işə salmaq üçün, sadəcə olaraq, poçt qutusuna göndərilən şübhəli keçidi izləmək kifayətdir. Çox vaxt təcavüzkarlar populyar xidmətlər və ya tanış qohumlar adından SMS göndərirlər. Belə ki, məsələn, fırıldaqçılar guya onlayn mağazasından poçtuna kütləvi mesajlar göndərirlər. Məktubda bazardan sabit gəlir əldə etməyin iş yolları təklif edilir.

Təhlükəsiz Wi-Fi şəbəkələrinə qoşularkən diqqətli olmaq lazımdır. Belə şəbəkələrin yanında asma kilid işarəsi yoxdur. Onlar yalnız təhlükəli deyil, həm də tələ ola bilər. Bir şəxs ona qoşulduqdan sonra haker parollara və digər şəxsi məlumatlara çıxış əldə edir. Bunun qarşısını almaq üçün şifrələnmiş bağlantılar vasitəsilə trafikinizi yönləndirəcək VPN proqramından istifadə etmək olar.

Smartfonlar və noutbuklar etibarlı USB portları ilə doldurulmalıdır. Hakerlər kafe və ya hava limanı kimi ictimai USB portlarına daxil ola və şəxsi məlumatları oğurlaya bilərlər.

Bəzi zərərli proqram növləri hakerlərə veb-kameralara giriş əldə etməyə imkan verir. Bir şəxs kameradan istifadə etmədikdə belə onları uzaqdan idarə etmək olar. Həmişə ən müasir mühafizəyə sahib olmaq üçün xüsusi proqram təminatı və antivirusu yeniləmək lazımdır. Yeniləmələr orijinal saytlardan endirilməlidir.

Tedroid Tech-Media Həmtəsisçisi Bəxtiyar Həsənov: "Xakerlərdən qorunmaq anlayışı dedikdə çox geniş bir sahə əhatə olunur. Bir çoxlarımız üçün xaker nə qədər sadə bir söz olsa da, hər bir sektoru ayrıca təhdid edən "xakerlər" mövcuddur. Məsələn, ən sadə halda sizin bank kartınızı oğurlamaq istəyən biri ilə, sizin əlinizlə işlədiyiniz şirkətin hansısa datalarını oğurlamaq istəyən birinin edəcəyi "xakerlik" aktı arasında xeyli fərq var. Ona görə də ilk növbədə təhdidin haradan gələcəyini tam olaraq bilmək və ona qarşı məhz bunu etməliyik demək çox çətindir.

Lakin insanlar rəqəmsal mühitdə gözüaçıq olmalıdırlar. Sadə insanları hədəf alan əksər fırıldaqçılar, əksər hallarda bank hesabı (kartı) kimi məlumatlara maraqlı olduqlarından, güvənmədiyiniz platformalarda virtual kartlardan və ya əsas olmayan (maaş və ya təqaüd), marketlərdən belə 1 manata ala biləcəyiniz debit kartlarından istifadə etməyiniz məsləhətdir. Qarşı tərəfin kimliyindən əmin olmadığınız təqdirdə, nə deyirsə desin, təhlükə yarada biləcək məlumatları bölüşməməlisiniz.

İctimai mühitdə ölkəmizdə ən çox yayılan hücum metodları nə qədər "xakerlik" adlandırmaq bəlkə də doğru olmasa belə, üstdə də qeyd etdiyimiz kimi bank hesabları ilə bağlıdır və xüsusilə onlayn alış-satış platformaları üzərində müşahidə edilir. Məsələn, hər hansı bir məhsulunuzu elan saytında yerləşdirmisiniz. Elanı hədəf alan fırıldaqçılar saxta bir "kuryer" xidməti göstərən sayt dizayn edərək, sanki məhsulunuzu poçtla göndərərək alacaqmış hissiyatı yarada və həmin sayt üzərindən göndərişlə bağlı hansısa "daşınma ödənişi" və.s tələb edə bilər. Siz də bunu doğru zənn edib 2 manatlıq kuryer ödənişindən nə olacaq deyib, bank kartınızı öz əlinizlə yazıb qarşı tərəfə verə bilərsiniz. Nəticə etibarilə belə nümunələrdən maksiumum dərəcədə diqqətlə yayınmaq lazımdır.

Bu yaxınlarda Amerika Federal Təhqiqat Bürosunun da dərc etdiyi kiberhücumlara qarşı məqalədə bildirildiyi kimi, veb-saytlarda göstərilən reklamların böyük bir hissəsi heç bir əsli olmayan saxta məzmunları özündə birləşdirir. Ona görə də reklamlara yanlışlıqla toxunmaqdansa "reklam bloklayıcı əlavələrdən" istifadə etmək məsləhət görülür. Xüsusilə kompüterlərlə brauzer üzərindən fəaliyyətimiz çox olduğundan reklam bloklayıcıları quraşdırmağı unutmamaq, hər hansı bir sayta daxil olarkən adres bölməsini əllə yazmaq və eyni zamanda hərf, simvol fərqlərini diqqətlə yoxlamaq lazımdır".

***Havar Şəfiyeva***

# 2023-cü il Ermənistan və Qarabağ separatçıları üçün son ildir!

*“Əgər "dqr hökuməti" danışmasa, Ermənistan yeni zərbələr alacaq". SİA xəbər verir ki, bu barədə jam.news-ə "Ani" araşdırmalar mərkəzinin koordinatoru, jurnalist Tatul Akopyan deyib. Onun sözlərinə görə, separatçı "rəhbərlik" öz məsuliyyət paylarını işə salmalıdırlar və Rusiyanın vasitəçiliyi ilə Azərbaycanla dialoqa getməyə çalışmalıdırlar. "Əks halda təhlükəli situasiya baş verəcək və Ermənistan dialoqda tək qalacaq", deyə o bildirib.*







SİTAT: ”Ermənistan yenidən təzyiq altına düşəcək, masaya sənədlər qoyulacaq və ölkə yenidən ağrılı sənədlərin qəbulu üçün güzəştə gedəcək. Ermənistanda və Qarabağda isə deyəcəklər ki, Ermənistan hakimiyyəti növbəti xəyanətkar addıma getdi”.

Erməni siyasi araşdırmaçısı xəbərdarlıq edib ki, mövcud pat vəziyyəti hər an partlaya bilər və onun nəticələri Ermənistan üçün ağlasığmaz olacaq. SİTAT: ”Nəyə görə mən Ermənistan üçün deyirəm? Ona görə ki, nə qədər rus sülhməramlıları Qarabağda qalırlarsa, Əliyev (Azərbaycan Prezidenti İlham Əliyev-R.R.) ”dqr” ilə münaqişəyə getməyəcək. O, əvvəllər də olduğu kimi, kiçik münaqişələrə gedəcək. Ciddi zərbələr isə Ermənistana tərəf istiqamətləndiriləcək”.

O, hesab edir ki, Bakı Laçın ”dəhlizinin” qapadılmasını (ermənilər belə iddia edirlər - R.R.) özünün hərbi üstünlüyünə və Rusiyanın susqun dəstəyinə hesablayıb. Tatul Akopyana görə, Bakı Moskvanın mövqeyini ”neqativ” qiymətləndirməklə qarşı tərəflə ”ehtiyatla” davranır. Onun sözlərinə görə, sağlam düşüncə ilə baxılsa Rusiya hazırkı məqamda ermənilərə kömək edə bilməz, ancaq bunun yerinə daha ciddi zərbələr də vura bilər. SİTAT: ”Misal üçün, Ermənistanı Rusiya ilə yeganə əlaqələndiricisi olan Yuxarı Lars sərhəd keçid məntəqəsini bağlayar. Nəticədə Ermənistan ”dqr”in düşdüyü situasiyanı yaşamalı olacaq”.

Beləliklə, Tatul Akopyan hansı fikirlərə və əsaslara söykəndiyini, hansı nəticələrə gəldiyini, əslində, özü bilər və bütün bunların müqabilində fakt budur ki, hazırda Ermənistanda və RSK-nın müvəqqəti fəaliyyət göstərdiyi Qarabağın separatçılar olan ərazilərində vəziyyət get-gedə daha da ağırlaşır. Ermənistan hələ də Azərbaycan torpaqlarına iddialarından əl çəkmir və indi də Qarabağdakı cinayətkar rejim təmsilçiləri arasındakı hərc-mərcliklər barədə də bəzi məqamlara toxuna bilərik.

### Ermənistan və Qarabağ separatçıları üçün son şans!

Fakt budur ki, Kremlin layihəsi olaraq Qarabağ atılan Ruben Vardanyan amili oradakı separatçıları bir-birinə vurub. Xankəndidəki mənbələrdən ”Kavkazki büro” teleqram kanalına daxil olan məlumata görə, Ruben Vardanyanın gəlişindən başlayaraq onun başda qondarma ”prezident” Araik Arutyunyan, artıq ”vəzifələrindən” uzaqlaşdırılmış ”təhlükəsizlik katibi” Vitali Balasanyan və ”xarici işlər naziri” David Babayanla münasibətləri qarşıdurma həddinə çatıb.

Mənbə bildirib: ”Ruben Vardanyanın Qarabağa gəlişinin əsas məqsədi bütün iqtisadi fəaliyyəti nəzarətə götürməsindən sonradan isə Bakı ilə əsas danışıqlar aparan şəxs rolunu almaqdan ibarət olub. O, bütün yerli elitanı neytrallaşdırdıqdan sonra Bakı ilə danışıqlara gedə biləcək yeganə şəxs olduğunu düşünür”.

Mənbə xüsusilə Vitali Balasanyanın kənarlaşdırılmasına münasibət bildirərək deyib ki, Vardanyandan fərqli olaraq Balasanyanın İrəvanda heç bir siyasi ambisiyaları yoxdur və o separatçılar arasında ekoloji monitorinqin aparılmasını dəstəkləyən şəxslərdən biri olub ki, gərginlik azalsın: ”...Lakin Vardanyan bu fikirləri rədd edərək bildirib ki, vəziyyət nə qədər gərginlədikcə bir o qədər onların xeyrinə olacaq. O, bu vasitə ilə Bakıya təzyiqlərin artacağını düşünüb. Ancaq Balasanyan bu ideyanın əksinə gedib və Bakı ilə razılaşmalara getməli olduğunu bildirib”.

Belə bir mühit vəziyyəti gərginləşdirir və belə bir yerdə Prezident İlham Əliyevin ölkə jurnalistlərinə verdiyi müsahibəsi zamanı irəli sürdüyü bəyanatı bir daha öz əhəmiyyətini göstərir - 2023-cü il onlar üçün son işdir və yaxşı olardı ki, əsl reallığı dərk etsinlər.

**Rövşən RƏSULOV**



# Qərinənin “Səs”i

**Mətanət Məmmədova**

***32 il öncə, ölkənin ictimai-siyasi həyatının mürəkkəb dövründə mətbu salnaməmizə yeni bir qəzet daxil oldu- "Səs" qəzeti. Yarandığı gündən səhifələrində dərc olunan gündəmin nəbzini tutan maraqlı yazılarla, operativ xəbərlərlə birincilər sırasında olan "Səs" müstəqilliyimizin bərpasının ilk illərində doğru sözlü və dövrün güzgüsü olduğu üçün saysız təqiblərə də məruz qalmışdır.***

Yeni Azərbaycan Partiyasının 30 illik tarixinin arxivi hesab olunan ”Səs” qəzeti həmin dövrdə Naxçıvan Muxtar Respublikasında yaşayan və fəaliyyət göstərən ümummilli liderimiz Heydər Əliyevin bütün çıxış və məruzələrini nəşr edən ilk qəzetlərdəndir. Elə bu səbəbdən də ulu öndərimizin Bakıya gəlməsinin qəti şəkildə qarşısını almaq istəyənlərin, bunun üçün min bir əngəl yaradanların, hakimiyyəti davası aparan, xalqın iradəsinin əksinə olaraq hakimiyyətə gələnlərin və bu mövqeyə layiq olmadıqlarını qısa zaman kəsiyində ortaya qoyan qüvvələrin təzyiqinə məruz qalmışdır.

Dəfələrlə həmin qüvvələrin nümayəndələri redaksiyaya basqınlar etmiş, əməkdaşlara xəsarət yetirmiş, onları ölümlə hədələmiş, doğru yoldan sapdırmağa çalışmışlar. Lakin ”Səs” adından da göründüyü kimi, dövrün haqq səsi, ədalət carçısı olmuş, bu qədər təqib və təzyiqlərə baxmayaraq tutduğu yoldan çəkinməmiş, ölkədəki özbaşınalıq şəraitində mövqeyini qoruyub saxlaya bilmişdir.

Bütün bunlar isə ”Səs” ətrafında toplaşan jurnalistlərin ölkənin ictimasi-siyası həyatındakı axsamaları aydın şəkildə görə bilmələri, həmin dövrdə siyasi meydanda olan qüvvələrin xalqı uçuruma apardıqlarını, onların millət üçün heç bir faydası olmadığını açıq şəkildə görə bilmələri, ölkə üçün hansı addımların düzgün olduğunu dərindən dərk etmələri nəticəsində olmuşdur.

32 ilin hər anında sözünü deyə bilən, ölkədə baş verən hadisələrə obyektiv münasibət göstərən, geniş təhlili yazılarla, araşdırmalarla gündəm olan ”Səs” qəzeti redaksiyası həm də ötən illərin bir mətbu məktəbi olmuşdur. Burada çalışan onlarla insan zaman-zaman müxtəlif sahələrdə yüksək vəzifələrə irəli sürülmüş, onların hər biri isə göstərilən etimadı doğrultmuşlar. Çünki necə deyərlər, onlar ”Səs”in tərbiyəsini almış, bu gözəl kollektivin əhatəsində ərsəyə gəlmişlər.

Mən kollektivə yeni gələnlərdən olsam da, həm yaşım, həm də təcrübəm imkan verdi ki, buradakı kollektiv və sevimli qəzetimiz haqqında söz deyə bilim. Bəli, ölkə mediasının öncüllərindən olan ”Səs” haqqında bir jurnalist olaraq eşitmişdim, lakin redaksiyada çalışandan sonra həqiqətən kollektivin əzmini, hər gün 16 səhifəlik qəzeti necə böyük zəhmətlə, sevgi ilə ərsəyə gətirdiklərini gördükdən sonra ”Səs” haqqında deyilənlərin nə qədər yerində olduğunu öz-özlüyümdə bir daha təsdiqlədim.

32 il. Bu, heç də az bir zaman deyil. Bu, bir qərinə hesab olunur. Xalqa, dövlətə, dövlətçiliyə bir qərinəlik xidməti olan qəzet bu gün onun haqqında deyilən bütün yüksək fikirləri haqq edir. Çünki onun səsi qərinənin o başından gəlir. Bu səs ölkə tarixinin səsidir. İctimai-siyasi həyatımızın səsidir. Arxivində nüsxələnən 32 illik salnamənin səsidir.

Təsadüfi deyil ki, ümummilli liderimiz Heydər Əliyev də ”Səs” qəzeti haqqında dəyərli fikirlər döyləmişdir. ”Səs” qəzeti mənim üçün çox əziz qəzetdir. 1991-ci ilin fevral ayında, Azərbaycanda kommunist hakimiyyəti dövründə mən Ali Sovetdə çıxış edəndən sonra mənim çıxışım,- xatirinizdədir, o vaxt mənim çıxışımı hörmətdən salmağa çalışdılar, onu dərc etmək də istəmirdilər, amma mənə lazım idi ki, o, dərc olunsun,- ”Səs” qəzetində dərc edildi. Mən Naxçıvanda işləyərkən bizim bir neçə tədbirlərimiz barədə yazıları ”Səs” qəzetində dərc edə bildik. Nəhayət, ”Səs” qəzeti ”91-lər”in müraciətini dərc edib, mənim cavabımı dərc edibdir. Ona görə də ”Səs” qəzeti bizim partiyanın tarixində ən mötəbər yer qazanmış bir qəzetdir. Görürəm ki, son vaxtlar özünün xüsusiyyətlərini itirmədən modernləşir, yaxşılaşır. Arzu edirəm ki, daha da modernləşsin və yaxşılaşsın.

Bəli, ümummilli liderimizin bu kəlamları ”Səs”in pasportudur. Bu mətbu orqanın daim gələn və gələcək səsidir. Bu kəlamlar bu qəzetin qiyməti, dəyəri, ölkəmizin müstəqilliyi, suverenliyi yolunda mübarizəsi, əqidəsidir.

Ulu öndərimizin qəzetimiz haqqında dəyərli fikirləri kollektivimizin qürurudur. Bu qürurla da ”Səs” hər zaman dövlətimizin, dövlətçiliyimizin yanındadır. Çünki ötən bir qərinədə bu mətbu orqan nəyin doğru, nəyin yalan olduğunu görə-görə gəlmişdir. Bu səbəbdən də o, həmişə doğru olanların, xalqını, millətini düşünənlərin yanındadır. Bu siyasəti bəyənənlərin sırasındadır. Bu doğru yolda bu gün 32 yaşı tamam olan qəzetimizə və dəyərli kollektivimizə uğurlar arzulayıram.




# Xankəndi-Laçın yolunda etiraz aksiyası: Yenilməz iradə, möhkəm dəyanət və dönməz qətiyyət







***İyirmi yeddi gündür ki, ölkəmizin vətəndaş cəmiyyətinin, qeyri-hökumət təşkilatlarının, ekoloqlarının və gənc fəallarının Azərbaycanın Qarabağ iqtisadi rayonunda "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarının qanunsuz istismarı əleyhinə Xankəndi-Laçın yolunda etiraz aksiyası davam edir. Havanın şaxtalı olmasına baxmayaraq, ekofəallar yolun hər iki tərəfində, hərəkətə manеə törətmədən üzərində Azərbaycan, rus və ingilis dillərində yazılmış plakatlar qaldırıb, şüarlar səsləndirirlər.***




Aksiya iştirakçılarının tələbləri ilk gündən olduğu kimi, dəyişməz olaraq qalır. Belə ki, ekofəallar və gənc könüllülər "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Azərbaycan vahiddir, sərvətinə sahibdir!", "Ekoloji cinayətə son!", "Stop ekoterror!", "Bereqite prirodu!", "Gkoüidu net! Monitorinqu da!" şüarlarını səsləndirirlər.

2022-ci il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində, xüsusilə "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarına yerində baxış, faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb.

Artıq iyirmi yeddi gündür ki, etirazçılar göstərilən yataqlara yerində baxış keçirilməsini, qanunsuz istismarın dayandırılmasını, müxtəlif istiqamətlər üzrə monitorinq və inventarizasiyanın aparılmasını, ətraf mühitə potensial risklərin qiymətləndirilməsini və dəymiş zərərin nəticələrinin aradan qaldırılmasını tələb edirlər. Ekofəalların dinc etiraz aksiyasının humanitar böhrana səbəb olması barədə Ermənistan tərəfinin, o cümlədən Eçmiədzin kilsəsinin iddiaları qətiyyən həqiqətəuyğun deyil. Belə ki, humanitar dəhliz fəaliyyətdədir. Etiraz aksiyasının keçirildiyi yerdən çəkilən videolarda görünür ki, humanitar yük daşıyan və təcili tibbi yardım maşınları sərbəst hərəkət edə bilir və bunun üçün aksiya keçirənlər tərəfindən hər bir şərait təmin olunur. Qarabağ bölgəsində yaşayan erməniəsilli Azərbaycan vətəndaşlarının humanitar problemləri olduğu halda, onların müraciətlərinin operativ şəkildə həlli üçün qaynar xətt yaradılıb.

Bütün bunlar bir daha təsdiq edir ki, Ermənistanın, Qarabağdakı separatçıların və onların havadarlarının "humanitar fəlakət", "blokada" bağırtıları, əsassız iddiaları aksiya ilə bağlı dünya ictimaiyyətində yanlış rəy formalaşdırmaq cəhdindən başqa bir şey deyil. Çünki Laçın yolunda dinc etiraz aksiyasının iştirakçıları Ermənistan mülki avtomobillərinin bu yoldan keçməsinə mane olmurlar. Demək olar ki, hər gün ardıcıl olaraq Xankəndidən Laçın istiqamətində Rusiya sülhməramlılarının təchizat maşınlarının maneəsiz keçməsinin şahidi oluruq. Azərbaycan Laçın yolu ilə bağlı hər zaman birmənalı mövqe bildirib: bu yoldan qeyri-qanuni iqtisadi və hərbi fəaliyyət üçün deyil, yalnız humanitar məqsədlər üçün istifadə etmək olar.

Əslində məsələ ondadır ki, bu humanitar dəhlizdən sui-istifadə olunaraq Qarabağdakı erməni separatçılarına silah-sursat, hərbi məqsədli yüklər, minalar daşınır. Təsadüfi deyil ki, üçtərəfli Bəyanatın imzalanmasından sonra üç yüzə yaxın mülki Azərbaycan vətəndaşı yeni basdırılmış minalardan zərər çəkmiş- həyatlarını itirmiş, ya da ömürlük əlil olmuşlar. Son vaxtlar torpaqlarımızda 2021-ci il Ermənistan istehsalı olan 350 mina aşkar edilib. Ən son mina qurbanları 2021-ci il 14 dekabr tarixində Kəlbəcər rayonunda 8 azərbaycanlı oldu.

Bəli, aksiya iştirakçılarının səsləndirdikləri şüarda deyildiyi kimi, Azərbaycan oyaqdır, sərvətinə dayaqdır. Hər kəs bilməlidir ki, etirazçıların bu tələbləri yerinə yetirilməyincə aksiyalar davam edəcək. Sərt şaxtalı və qarlı hava şəraitində mübariz əhval-ruhiyyə, yenilməz iradə, möhkəm dəyanət və qətiyyət nümayiş etdirən aksiyaçılar tezliklə öz istəklərinə nail olacalar.

***Zahid Rza***

*Azərbaycan ədəbiyyatında öz səsi, sözü olan şairlərdən biri, Azərbaycan milli ədəbiyyatını zərif lirikanın dəyərli nümunələri ilə zənginləşdirən Nigar Rəfibəylinin yaradıcılıq qayəsinin əsasını vətənə bağlılıq, insanın mənəvi ucalığı təşkil edir. Onun özünəməxsus deyim, ifadə tərzi vardır. Onun poeziyası insanların qəlbinə yol tapan kövrək, lakin davamlı, oxucusunu uzun müddət təsir altında saxlamağı bacaran bir poeziyadır.*

# Sevgidən yoğrulan poeziya

## Nigar Rəfibəyli - 110

Nigar xanımın həyatının yarım əsrini həsr etdiyi, sevə-sevə yazıb yaratdığı və sevilə-sevilə oxunan şeirlərinin külliyyatı vətən torpağının gözəlliyinə - gülü, çiçəyi, dənizi, bağı, meşəsi, fəsillərin özünəməxsus çalarları, dünyamızda baş verən fərəhli və nisgilli hadisələr, ən başlıcası, insanlar, onların taleyi, mənəvi aləminə həsr olunub. Bütün bunlar kövrək qəlbli şairənin hissini, şüurunu ehtizaza gətirib, gördükləri şeirə çevrilib. Daim nikbin olan Nigar Rəfibəylinin ən kədərli şeirində belə ümidli günəşin şəfəqləri duyulur. Misraların ahəngində dan yerinin ağardığını görürsən. Çünki, onun şeirləri saf bir nəfəsdən, könüldən doğan və ürəyə ünvanlanan bahar nəğmələri kimi yaşıldır. Bu şeirlərin ahəngində qəribə bir zəriflik duyulur. Nigar xanımın lirikası geniş, vüsətli bir lirikadır. Onun palitrasındakı rənglər yalnız məhəbbətin tərənnümü, hicran yanğısının təsviri üçün deyil. Bu rənglər həyatın daha əlvan hadisələrinin inikası üçün, ictimai həyatda, insanlar arasındakı münasibətlərdə yol verilən haqsızlıqların ifadəsi, köməksizlərin müdafiəsi, ahəngdarlığın qorunması üçündür.

Nigar Rəfibəyli milli ədəbiyyatı, zərif lirikanın dəyərli nümunələri ilə zənginləşdirən sənətkardır. Ana vətənə bağlılıq, insanın mənəvi ucalığı və yurdun əsrarəngiz təbiət gözəlliklərinin özünəməxsus tərzdə tərənnümü onun yaradıcılığının ideya-bədii leytmotivini təşkil edib. Belə yaradıcılıq yoluna, sənət ucalığına sahib olan, Azərbaycan ədəbiyyatının inkişafında mühüm xidmətləri olan xalq şairi Nigar Rəfibəylinin sənət yolu daim diqqətdədir. Azərbaycanın xalq şairi Nigar Rəfibəyli 1913-cü ildə 110 il bundan əvvəl Gəncə şəhərində anadan olub. 1930-cu ildə Bakı Pedaqoji Texnikumunda təhsil alan Nigar xanım 1931-ci ildən əmək fəaliyyətinə başlayıb və "Azərnəşr"də bədii ədəbiyyat şöbəsində tərcüməçi və redaktor kimi çalışıb. Nigar Rəfibəyli sonradan Moskva Pedaqoji İnstitutunda təhsilini davam etdirib. Yaradıcılıq uğurlarına tələbəlik illərində nail olub. Hələ Moskvada təhsil alarkən 1934-cü ildə Bakıda ilk şeirlər məcmuəsi çapdan çıxıb. "Çadra" adlı ilk şeiri isə 1928-ci ildə "Dan ulduzu" jurnalında dərc edilib. 1934-cü ildə nəşr olunan ilk "Şeirlər" kitabı Azərbaycan qadınlarının yeni həyat quruculuğunda iştirakından bəhs edir.

Azərbaycanla bağlı müxtəlif mövzular əsasında yazıb-yaradan Nigar xanım dünya xalqlarının da həyatından, faiəli anlarından bəhs edən şeirləri ilə çıxış edib. Belə ki. onun "Dolores İbarruri" şeiri ispan xalqının faşizmə qarşı qəhrəmanlıq mübarizəsinə həsr olunmuşdur. "Cəmilə" şeri isə Əlcəzair xalqının milli azadlıq mübarizəsindən bəhs edən qüvvətli lirik əsərlərindəndir.

Yaradıcılıqla məşğul olan Nigar Rəfibəyli 1937-1939-cu illərdə "Uşaqgəncnəşr"də bədii ədəbiyyat şöbəsində redaktor vəzifəsində çalışıb. 1940-cı ildən ömrünün sonunadək bütün qüvvəsini yaradıcılıq işinə həsr edərək, qardaş xalqlar ədəbiyyatından (Nəvai, Şiller, Puşkin, Lermantov, Çexov, Şevçenko və başqaları) bədii tərcümələr etməklə milli mədəniyyət xəzinəmizi zənginləşdirmişdir. Yaradıcılıq dövründə Nigar Rəfibəyli xidmətlərinə görə "Şərəf" nişanı ordeni və medallarla təltif olunmuşdur.

Nigar Rəfibəylinin həyat və yaradıcılığı, onun həzin hisləri və incə duyğular tərənnüm edən poeziyası nəinki milli ədəbiyyat tariximizdə özünəməxsus yer tutmuş, eyni zamanda böyük şair, ictimai xadim Rəsul Rzanın həyat və yaradıcılığına belə əsaslı təsir etmişdir. Azərbaycanın xalq şairi Rəsul Rza ilə birlikdə Azərbaycan ədəbiyyatının yüksəlməsində xüsusi rol oynamışdır. Bu ailənin övladı Azərbaycan xalq yazıçısı, Yazıçılar Birliyinin sədri Anar da öz əcdadlarının, anasının, atasının sənət yolunu davam etdirir və Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişafına öz xidmətlərini göstərir. Bir ailənin üç üzvü Azərbaycanın sevilən- seçilən nümayəndəsinə çevrilib. Bir ailədə üç xalq yazıçısı - Rəsul Rza, Nigar xanım Rəfibəyli, Anar. Bu əlbəttə ki, bir şəcərənin tarixi üçün böyük bir səltənətdir.

Qeyd edim ki, Nigar xanım tanınmış, Azərbaycan həyatında rol oynamış bir ailənin yetirməsi idi. Gəncənin böyük Rəfibəylilər ailəsinin, sülaləsinin çox parlaq nümayəndəsi idi Nigar Rəfibəyli. Ulu Öndər Heydər Əliyev Gəncə səfəri zamanı Sərdar bağında Nigar xanım Rəfibəylinin abidəsinin açılış mərasimində iştirak edərkən çıxışında Gəncənin tarixi haqqında danışaraq Rəfibəylilərin xüsusi yerini qeyd edir. Nigar xanımın da bu şəcərənin davamçısı olaraq Azərbaycan xalqına sədaqətlə xidmət etdiyini və Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətlər göstərdiyini bildirir: "Ancaq onun ailəsinin həyatı da faciəli olmuşdur. Gəncəlilərə həm qəhrəmanlıq qismət olmuşdur, həm də təəssüflər olsun ki, faciələr, repressiyalar da qismət olmuşdur. İyirminci illərin repressiyalarında, otuzuncu illərin repressiyalarında çox dəyərli gəncəlilər - ziyalılar məhv edilmişdilər. Onlardan biri də Nigar xanımın atası Xudadat bəy Rəfibəyli Azərbaycanın ilk müstəqil hökumətində, Xalq Cümhuriyyətində nazir vəzifəsini tutmuş bir insan, sonra repressiya qurbanı olmuşdur. Ancaq tarix hər şeyi öz yerinə qoyur. Repressiya qurbanı olmuş Xudadat bəy Rəfibəylinin qızı Nigar xanım Rəfibəyli böyük yol keçmiş, Azərbaycan mədəniyyətinin inkişaf etməsi uğrunda çalışmışdır".

Həqiqətən də orijinal yaradıcılıq imkanlarına malik olan Nigar Rəfibəylinin şeirləri Azərbaycan ədəbiyyatında özünəməxsusluğu ilə seçilir. Onun poeziyasında insana məhəbbət anlayışı genişdir. Əsl humanist şairlər kimi, Nigar xanım da bütün əməksevər, sülhsevər insanları sevir, onları xoşbəxt görmək istəyirdi. Nigar Rəfibəyli son dərəcə həssas, qayğıkeş, mülayim, kövrək qəlbli bir insan idi. Həyatı, insanları bu qədər dərindən sevən, onları ilhamla tərənnüm edən, səmanı aydın, günəşi parlaq, gülləri ətirli, insanları kamil görmək istəyən şairənin bu gün də qulaqlarımızda əks edən səsi həqiqi sənətkarın, kamil insanın könül arzularıdır.

Nigar Rəfibəyli Azərbaycanın şair qadınları arasında öz zərif duyğusu və intellektual səviyyəsi ilə seçilir. Onun şeirlərində Azərbaycan qadınlarının sevgi və zəhmət dünyası, ağrı və acıları bütün əlvanlığı ilə qələmə alınmışdır. Şairin bənzərsiz, yüksək metodik ahəngə və dəyərli sözə malik olan nəğmələri çoxdur. Nədən yazmağından asılı olmayaraq, Nigar Rəfibəylinin poeziyasında daim müraciət olunan bir mövzu həmişə diqqət çəkib. Bu ana məhəbbəti, qadın səadəti, övlad sevgisidir. Nigar Rəfibəyli yaradıcılığında ana mövzusunun xüsusi yeri var. Övlad, ana məhəbbəti, onun şeirində Tanrı zirvəsinə qalxa biləcək bir dünyadır:

Döyür pəncərəmi bir acı ruzigar,



Bayırda bu axşam yenə boran var.
Bürüyüb qəlbimi coşqun arzular,
Çəkilib gözümün yuxusu, ana.

Nigar Rəfibəylinin yaradıcılığı incə saf duyğulardan ibarətdir. Bəzən şeirlərdə həyatın və ovqatın poetik mənzərəsi adamı heyrətə gətirir. Nigar xanımın şeirləri sadəliyi, səmimiliyi, təbiiliyi ilə diqqəti cəlb edir. Bunlar asanlıqla oxucuların qəlbinə yol tapır, onları düşündürmək, həyecanlandırmaq iqtidarındadır.

Zərif duyğularının poetik şəkildə təsirli ifadəsinə, həyatın adilikləri içərisində heyrətedici məqamları görə bilməsinə və bunun da nəticəsində qələmə aldığı şeirlərində insanın ruhunu dilə gətirən, ona romantik duyğular aşılayan, düşündürən Nigar Rəfibəyli Azərbaycan poeziyasında öz dəst-xəttinə malik unudulmaz söz sahiblərindən biridir.

Nicar Rəfibəylinin təbiət mənzərələri, mənəvi zənginlik, vətənpərvərlik, sülh, demokratiya, azadlıq ideyaları tərənnüm olunan "Dənizin səsi gəlir", "İşıqlı dünyam", "Günəşdən gənclik istədim", "Həzin bir axşamda düşən yadıma", "Şanlı nəsillərin yadigarısan" müharibə mövzusuna və müharibə əleyhinə həsr olunan "Zəfər nəğməsi", "Anaların səsi", uşaqlar üçün yazdığı "Balaca qəhrəman", "Günəşin cavabı", "Məstanın balaları", "Bizə bahar yaraşır" kitabları da ədəbiyyatımızı zənginləşdirmişdir.

Nigar Rəfibəyli Məhsəti Gəncəvinin rübailərini, Evripidin "İfigeniya", F.Şillerin "Məkr və məhəbbət", A.P.Çexovun "Vanya dayı", "Albalı bağı" dramalarını, E.L.Voyniçin "Ovod", O.Qonçarın "Bayraqdarlar" romanlarını, Ə.Nəvai, A.S.Puşkin, M.Y.Lermontov, T.Q.Şevçenko, Ş.Petöfi, A.Mitskeviç, A.Sereteli və başqalarının əsərlərini tərcümə etmişdir. Eyni zamanda əsərləri xarici dillərə tərcümə olunub.

Nigar Rəfibəyli Azərbaycan ədəbiyyatına şairə, tərcüməçi, Azərbaycanın əməkdar mədəniyyət işçisi, Azərbaycanın xalq şairi kimi iz salıb.

Gözəl insan, unudulmaz şairəmiz Nigar xanım Rəfibəyli 1981-ci il iyulun 10-da Bakıda vəfat edib və Fəxri Xiyabanda dəfn olunub. Hazırda Bakı küçələrindən biri onun adını daşıyır. Qeyd edək ki, Nigar xanım 1967-ci ildə "Əməkdar mədəniyyət işçisi", 1981-ci ildə "Xalq şairi" fəxri adlarına layiq görülmüş, "Şərəf" nişanı və digər orden və medallarla təltif olunmuşdur.

***ZÜMRÜD BAYRAMOVA***

# "Azərbaycanda sosial paketin artımı daim dövlətin diqqət mərkəzindədir"



"Azərbaycanda vətəndaş rifahının təminatı, əhalinin sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin əsasını təşkil edir. Sosial-iqtisadi siyasətin mərkəzində vətəndaş rifahının təminatı prinsipinin dayanması, son 5 ildə vətəndaş rifahının təminatı istiqamətində 4-cü sosial islahat paketinin təsdiqlənməsiylə öz təsdiqini tapdı. Prezident İlham Əliyevin rəhbərliyi ilə



davamlı olaraq həyata keçirilən sosial islahatlar hər zaman vətəndaşların rifahının qorunmasına, onların yaşayış səviyyəsinin yüksəlməsinə hədəflənib". Bu sözləri SİA-ya açıqlamasında deputat Müşfiq Cəfərov deyib.

Onun sözlərinə görə, elə dövlət başçısının imzaladığı son sərəncam da əhalinin böyük bir qisminin sosial ödənişlərin artırılması istiqamətindəki islahatların uğurlu davamını təmin edir və növbəti aydan etibarən, vətəndaşlar əməkhaqları və pensiyanı yeni hesablanma ilə əldə edəcəklər: "Nəzərə alsaq ki, bütün bu addımlar pandemiyadan və müharibədən sonra, həmçinin dünya iqtisadiyyatının tənəzzül yaşadığı bir vaxtda atılır, bu, da onu deməyə əsas verirki, Azərbaycanda sosial paketin artımı daim dövlətin diqqət mərkəzindədir".

Deputat sözlərinə belə davam edib: "İnanıram ki, qarşıdakı illərdə əhalinin sosial müdafiəsi daha da gücləndiriləcək. Azərbaycan sosial - iqtisadi göstəricisinə görə öndə olan qabaqcıl ölkələrdən olacaqdır. Həm ermənilər tərəfindən viran qoyulan Qarabağın bərpası, həm ordu quruculuğuna ayrılan diqqət və qayğı, digər tərəfdəndə əhalini rifahının yaxşılaşdırılması üçün həyata keçirilən islahatlar bunu deməyə əsas verirki, qarşıdakı illərdə daha da güclü və dayanıqlı sosila iqtisadi sistemi olan Azərbaycan görəcəyik".

***Ayşən Vəli***

# "Ermənilər sülh haqqında danışır, amma praktiki addımlar atmırlar"

"Ermənilər sülh haqqında danışır, amma praktiki addımlar atmırlar. Bəzən də ötən il olduğu kimi praktiki nəticələrə yaxınlaşıldığı zaman hansısa supergücün təhriki ilə qeyri-konstruktiv mövqe tutaraq sülh prosesini ya yubadırlar, ya da baş tutmasına əngəllər yaradırlar. Bu sözləri SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib.



Onun sözlərinə görə, bu nöqteyi-nəzərdən ermənilər hələ ki, ilin başlanğıcından Laçın koridorunu bəhanə edərək sülhyaratma prosesinin Azərbaycan tərəfindən əngəllənməsi barədə hədyanlar söyləyirlər: "Onlar, eyni zamanda da, sülhdən dəm vururlar. Mənim fikrimcə, bu məsələdə əsas skripka rolunu Rusiya oynayır. Rusiya Nikol Paşinyanı devirmək, Qarabağa göndərdiyi Ruben Vardanyanı da əvvəlcə Qarabağda liderlik, daha sonra isə Ermənistan hakimiyyəti uğrunda mübarizəyə atmaq istəyir".

Politoloq sözlərinə davam edərək bildirib ki, Paşinyanın Rusiya ilə əlaqələri pisləşdirmək xətti də bununla bağlıdır: "Üstəlik, onun Rusiyaya qarşı irəli sürdüyü ittihamlar daha da çoxalıb. Zənnimcə, Nikol Paşinyan sülh müqaviləsini bağlamağa hakimiyyətini qoruyub saxlamağa çalışacaq. İndiki halda onun Rusiyanın təxribatlarının qarşısını almaqda əsas yolu sülh müqaviləsini imzalamaqdan keçir. Artıq Paşinyanın sülh göyərçini libasına bürünməsi onların bunu dərk etməsini yəqin edir. Hər halda yaxın vaxtlarda sülh müqaviləsi istiqamətində danışıqların baş tutacağı istisna olunmur".

***Ləman Əlizadə***




# Maşallah

***Bizim atalarımız vaxtilə əziyyət çəkib deyirmişlər ki, bir insanı tanımaq üçün bir ömür yetmir. Desəm ki, hələ dünya yaranandan insanları tanımaq üçün "Tiktok" qədər əlverişli yer olmayıb, mənə inanın, həm də çox inanın. Görün, bu sosial şəbəkə nə qədər gözəl bir yerdr ki, burada əziyyət çəkib kimi isə tanımaq üçün ömür, beş il, on il lazım deyil, özləri özlərini bir anın içərisindəcə sənə tanıdırlar. Atalarımızın o bir ömrə tanımadıqlarını burada bir baxışla tanımaq olur.***




Məsələn, Həsənqulu kişi vardı, Allah rəhmət eləsin, köhnə kişilərdən idi. Sanballı adamdı. Onun bir nəticəsi var. O gün "Tiktok"da görürəm ki, qolu-qıçı döyməli rəqs edir. Baxdım-baxdım, dedim, əhsən sənə, babası adam görəndə utandığından başını salırdı aşağı, salam verəndə adamın gözünün içinə də baxmağa çəkinirdi. Maşallah, bu uşaq gör nə qədər müasirdir. Halal olsun, bala, sənə. Babana oxşama, müasir ol.



Zəhra xalanın da bir qız nəvəsi var. O gün baxıram ki, "Tiktok"da sinəsi-başı açıq, canlı söhbətdədir. Dedim maşallah, gör nə gözəl müasir qızdır. Yazıq nənəsi ölənədək yaşmağını ağzından çəkmədi. Göynəyi boğazından bir barmaq aşağı enmədi. Ancaq nəvəsinə bax, bir də, maşallah, olsun. Nə qədər dəbli geyinib, çıxıb milyonlarla insanın qarşısına. Kişi, qadın, uşaq-böyük bilmir, canlıda canlı-canlı da söhbətlər edir.

Həsən kişi vardı, yaxşı tanıyırdım, hamı onun haqqında deyirdi ki, qızdan-gəlindən abırlıdır. Kişinin 5 qızı vardı, oğlu yoxdu. Haqqında camaat deyirdi ki, yazıq o qədər utancaqdı ki, oğlu da olmadı. Utancaqlığın oğlan olmasına dəxlinin nə olduğunu bu günədək dərk etməsəm də, amma bizdə belə bir deyim o vaxt, bu vaxt deyilməkdədir ki, utananın oğlu olmur. Yəqin nəvəsi də bunu eşidib. Deyib babam utancaq olub nə edib ki? Ona görə də utanmağın daşını ətəyindən töküb. O günləri baxıram ki, "Tiktok"da bir qıznan küçənin ortasındaca qol-boyun gəzir, hələ başqa şeylər də vardı, lakin onu deməyə utanıram. Əsla utanması-zadı da yox idi. Elə bil o babanın nəvəsi deyildi. Dedim, maşallah sənə, oğul, nə badə babana oxşayasan. Gəz, dolan, bax belə, afərin.



Hə, hələ kimdən deyim ey, Gülsüm xalanın qızından. Bu yaxınlarda yazıq arvad rəhmətə gedib. Rəhmətlik çox abırlı-həyalı qadın idi. Evdən eşiyə çıxmazdı. Bazar, dükan tanımazdı. O gün baxıram ki, onun da qızı bu "Tiktok"dadır. Çox qəşəng, dəbli, geyinib-kecinib çıxıb camaatın qarşısına, onlara məsləhət verir ki, qayınana ilə belə davranın, ona çox üz verməyin. Baldız ilə belə davranın, hər işinizə qarışmasına yol verməyin. Maşallah, dedim, sənə, çox maşallah. Elə anadan belə qız? Ana bayıra çıxmırdı utandığından, qızsa milyonlara, budur, həyat dərsi keçir. Afərin, bax müasirlik budur.

Heydər əminin də haqq üçün deyim, hər kəs xətrini çox istəyirdi. Kişi kimi sözünü deyən idi. Ailəsi də bir yumruq idi. Bir barmaq oradan azacıq açıla bilməzdi. Nəvəsi var, qızdı, o gün baxıram ki, "Tiktok"da. Həm də burada nə edir? Dəridən-qabıqdan çıxır, özünü makyaj edir, gənc qızlara necə makyaj etməyi öyrədir. Dedim, maşallah, sənə, belə qız. Ata-baba qayda-qanununun ziddinə belə gedərlər bax. Babası qızlarını qoymurdu ki, üzlərinə bircə qırıq ənlikdən-kirşandan sürtələr, ancaq nəvə gör o dövrü, o dövrün qanunlarını necə devirdi. Əhsən sənə belə qız...

Züleyxa xala da sayılıb-seçilən arvadlardan idi vaxtilə. Sözünün qarşısına söz deyən olmazdı. Oğlanlarını da, gəlinlərini elə yığıb-yığışdırmışdı ki, bir kəlmə artıq söz danışanı ola bilməzdi. Onun da bir nəticəsi var, baxıram ki, bıy, bu da "Tiktok"dadır. Hər gün bir video çəkib qoyur bura, qayınanasını məsxərəyə qoyur. Deyir, ay qızlar, qayınana kimdir ki, mənim işlərimə qarışa. Yoldaşım ona bir dəfə deyib ki, ay arvad, çəkil otur yerində. O da çəkilib dinməzcə oturub. Bir dəfə ki, işimizə qarışmağa duxu çatmır. Dedim, maşallah, Züleyxa xalanın nəticəsi. Halaldır sənə. Qətiyyən nənənə oxşama. Yaxşı eləyirsən, çıx "Tiktok"a bax belə danış, hərbə-zorbanı gəl. Nə istəyirsən, necə istəyirsən, elə də elə, qoy bütün qızlar səndən gəlin-qayınana münasibətlərini öyrənsinlər. Maşallah sənə.

Hə, yüzlərlə nənələr-babalar var ki, "Tiktok"da nəvələri müasirlik saçırlar ətrafa. Amma hamısından danışa bilmədim, qoy məndən küsməsinlər. Çünki çox uzun yazanda, vallah, oxuyan olmur. Ona görə bir neçəsindən bəhs etməli oldum. Qalanı da qaldı gələn səfərə. Həm də birinci rəhmətə gedənlərin övladlarından, nəvə-nəticələrindən yazdım ki, onlar atrıq yoxdular həyatda. Bu dünyada olsaydılar, onsuz da "Tiktok"dakı əzizlərini görüb rəhmətlik olacaqdılar.

Yaxşı ki, rəhmətə getmisiniz, ölülər. Allah sizə rəhmət eləsin, yaxşı ki, bu günləri görmədiniz. Yoxsa heç vaxt öz əcəlinizlə ölməzdiniz. Allah-təala qalanların canına cansağlığı, bir qədər də ağıl nəsib etsin ki, bu "Tiktok"da özlərini ta bundan da çox maşallahlıq etməsinlər.

***Mətanət Məmmədova***



İLHAM

# Ermənistan dövlət bayrağının emblemini dəyişir

***Cümleyi-aləmdə hər kəsin eyni arzusu var. Yəni dilindən, dinindən, milli mənsubiyyətindən asılı olmayaraq bəşər övladlarının ürəyindən, qəlbindən keçirdikləri arzuları eynidir: Gözəl geyinmək, yaxşı yemək, içmək, gəzmək və istirahət etmək, həm də balaca da olsa vəzifə sahibi olmaq. Amma araşdırmalar zamanı bəlli olan fakt ondan ibarətdir ki, bəzən gözəl görünən, yaxşı seyr edilənlər əksər hallarda üstü bəzək, altı təzək olur. Var-dövlət sahibi olmaq, vəzifə pillələrində yüksəlmək heç də xoşbəxtliyin əlaməti sayıla bilməz. Bu yerdə ulularımızın ibrətamiz məsəli də yada düşür: "Yavan-çörək yeyim, amma canım sağlam, ailəm salamat olsun". İnsanlar olub ki, aləmi-cahana hökm edib, amma sonunda bir metrlik kilimə möhtac qalıb. Malı-mülkü, milyardları olan məxluqlar olub ki, canındakı ağrılar, dizindəki taqətsizlik qəddi-qamətini əyib, fağır-füqəraya yana-yana baxıb. Ustad aşıqlarının deyimində deyildiyi kimi:***

***Dünyaya çox gəlib at oynadanlar,***
***Qılınc qaldıranlar qalxan tutanlar.***
***İnsanı qul deyib alıb-satanlar,***
***Möhtac olub bir yorğana, görmüşəm.***

Hər göz qamaşdıran parıltı qızıl ola bilməz. İlk baxışdan səndə xoş ovqat, gözəl hiss yaradan əşya və ya mənzərə dərinliyinə varanda, mənasız boşluqdan başqa bir şey olmadığını anlayarsan. Misal üçün, deyilənə görə, heyvanat aləmində ən gözəl göz eşşəkdədir. Ancaq cürət edib kiməsə "eşşək gözlüm" desən, işin fəna olar. Əminliklə demək olar ki, o sözü deyən az vaxt sonra polisdə zərərçəkən qismində tanınacaq. Eləcə də, şou-biznes aləminin bərkgedən mütrübləri kimi tanınan Aygünə, Rəqsanəyə, Xatirəyə, Röyaya "Ay mənim eşşək gözlü gözəlim" desən peşmanlığını çəkərsən. Uzun müddət qınaq obyekti olarsan, sosial şəbəkələrdə tənqid və təhqirlərə məruz qalarsan. Eləcə də, bu mütrüblər eşşəyin gözünü mədh etsələ,r yüz faiz sizləri əmin edirəm ki, həmin dəqiqə sponsorsuz qalacaqlar, xarici avtomobildən, bərli-bəzəkli villalardan məhrum olunacaqlar. Ona görə də bu biçarələr, saxtakarlıq edərək içib hovuza girəndə, "Maral, maral, maral" oxuyub, aradabir "Ay mənim ceyran gözlüm" deyib irişirlər.

Nə isə, görünən ondan ibarətdir ki, eşşəyin gözü ən yaxşı göz hesab olunsa da, quruluşu və forması heç xoşlanmır. Amma ABŞ-da eşşək ən sevimli heyvan hesab olunur. ABŞ-ın kənd və qəsəbələrində, şəhərlərində eşşəyi olan amerikalı mədəni sinyor, ləyaqətli mister hesab olunur. Hətta eşşəyin amekanlar üçün xətri o qədər əzizdir ki, onu Demokratlar Partiyasının simvolu olaraq qəbul ediblər. Prezident seçkilərində zirək demokratlar özlərinə "fil" simvolunu seçən respublikaçıları eşşəkləri vasitəsi ilə gözdən salmağa, sıradan çıxarmağa çalışırlar. Əksər hallarda da uğur qazanırlar.

ABŞ-ın siyasi ensiklopediyasında əks olunan yazılı məlumata görə, demokratların eşşəyə olan sevgilərinin tarixi 1828-ci il prezident seçkilərindən qoyulub. Müharibə qəhrəmanı kimi özünə ad çıxarmış prezidentliyə namizəd Andreş Jackson respublikaçılar tərəfindən populizmdə ittiham edilərək, "jackass", yəni eşşək adlandırılmışdır. O zamandan demokratların adları üstlərindədir: "Filan eşşək demokrat", "bəsmənkəs eşşək demokrat".

Eşşəkdən yazmışkən, yadıma Fransa dövlətinin bayrağının emblemində xoruz şəklinin olması düşdü. Nəsə şübhəli məqamlar var, necə ola bilər ki, özlərini dünyanın bərkgedən dövlətləri kimi təqdim etməyə çalışan ölkələr atributlarına it, pişik, eşşək və ya xoruz şəklini yerləşdirirlər? Ən maraqlı məqam ondan ibarətdir ki, Makron bacısı Ermənistana bağlığını sübut etmək üçün Paşinyan hakimiyyətinə dövlət bayrağındakı mənasız emblemi xoruz şəkli ilə əvəzləməyi təklif edib. Deyilənə görə, Paşinyan rejimi təklifi sevinclə qarşılayıb və yaxın vaxtlarda deputatlar rus dilində ifadəsi daha uyğun hesab olun, xoruzu başları üzərində qaldırmağa qərar veriblər. Əslində, belə də olmalıdır. Biz azərbaycanlılarda əski məsəl var, "atı atın yanına bağlasan, həmrəng olmasa da, həmxasiyyət olar".



*Xəbər verdiyimiz kimi, yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib. Dövlət başçısı suallara cavabında 2022-ci ildə ölkəmizin sosial-iqtisadi nəticələrinə də toxunub və konkret rəqəmlərlə bu sahələrdəki vəziyyəti ortaya qoyub.*

# “Azərbaycan sosial dövlətdir və biz bunu sözlə yox, əməlimizlə təsdiqləyirik”

## *Azərbaycan Prezidenti: "Bizim məqsədimiz ölkəni gücləndirmək və hər bir vətəndaşın həyatını daha da yaxşı etməkdir"*

Azərbaycan Prezidenti ardıcıl qlobal böhranla baxmayaraq ölkəmizin iqtisadi inkişafını ləngitmədiyini, bunun nəticəsində sosial siyasətin gücləndiyini deyib: ”Dünya postpandemiya dövrünə hələ təzə-təzə uyğunlaşır. Bir çox ölkələrdə, o cümlədən Azərbaycanda kəskin qiymət artımı müşahidə olunur. Bizim də iqtisadiyyatımız dünya iqtisadiyyatının bir parçası olduğu üçün əfsuslar olsun ki, biz də bu mənfi təsirə məruz qalmışıq. Ancaq biz çalışırıq ki, dünya üçün bu böhranlı vəziyyəti xalqımız üçün sosial layihələrlə, sosial proqramlarla yüngülləşdirək. Bu yaxınlarda imzaladığım çox geniş sosial paket bir daha bunu göstərir. Yəni, müharibədən təzə çıxmış ölkə, özü də ərazisinin 20 faizi tamamilə dağılmış vəziyyətdə olan ölkə əgər sosial sahəyə bu qədər vəsait ayırırsa, deməli, bizim sosial siyasətimiz dəyişməz olaraq qalır və əlbəttə ki, bizim iqtisadi gücümüzü göstərir. Çünki biz bütün işləri öz hesabımıza edirik. Mən bunu artıq səsləndirmişəm. Biz müharibədən sonra heç kimdən yardım almamışıq. Sadəcə olaraq, iki ölkənin- Özbəkistanın və Qazaxıstanın prezidentləri Füzulidə iki məktəbin tikintisinə özləri təşəbbüs göstərmişlər. Bundan başqa biz heç bir yerdən bir manat yardım almamışıq”.

### ”Ümumi daxili məhsulumuz rekord həddə çatıb”

Dövlət başçısı keçən il iqtisadi inkişafın ən yüksək həddə çatdığını deyib: ”Keçən il bizim ümumi daxili məhsulumuz rekord həddə çatıb. Son dəqiqləşdirilmiş məlumata görə, 134 milyard manata çatıb. Bu da təxminən 80 milyard dollara bərabər olan rəqəmdir. Əlbəttə ki, həm də xarici ticarət artıb, 50 milyard dolları ötüb. Xarici ticarətin müsbət saldosu 25 milyard dollar təşkil edir. Yəni, iqtisadiyyatla məşğul olanlar bilirlər ki, bu nə deməkdir və eyni zamanda, bizim xarici borcumuz azalıb. Həm mütləq rəqəmlərlə- 7 milyard dollardan aşağıdır, həm də ümumi daxili məhsula nisbətdə təbii ki, kəskin azalıb. Əgər keçən ilin əvvəlində xarici borcumuz ümumi daxili məhsulun 17 faizini təşkil edirdisə, keçən ilin yekunlarına görə bu, 9,5 faizə düşüb. Yəni, müqayisə üçün deyə bilərəm ki, bir çox inkişaf etmiş ölkələrdə bu, 100 faiz, hətta 130-150 faizdir. Bu nədir? Bu odur ki, biz iqtisadi cəhətdən müstəqilik, əgər biz indi istəsək, yenə də beynəlxalq maliyyə qurumları ilə kreditlərin cəlb edilməsi üzrə işlərə başlaya bilərik, əslində başlamışıq. Çünki həm Dünya Bankı ilə, həm Avropa Yenidənqurma və İnkişaf Bankı ilə icraatda olan layihələr demək olar ki, başa çatır. Dünyanın hər iki aparıcı maliyyə qurumunun yüksəkvəzifəli nümayəndələri keçən il Bakıda olmuşlar və aparılan müzakirələr zamanı yeni istiqamətlər müəyyən edilib. Yəni, mən tam əminliklə deyə bilərəm ki, biz limitsiz xarici kreditlərin cəlb edilməsində heç bir problem görməyəcəyik. Amma hələ ki, buna böyük ehtiyac yoxdur. Ona görə iqtisadi və sosial sahə həmişə paralel getməlidir. O ölkələrdə ki, ancaq iqtisadi sahəyə diqqət verilir və sosial sahə kənarda qalır, orada insanlar iqtisadi islahatlardan çox böyük əziyyət çəkirlər. Bizim isə məqsədimiz ölkəni gücləndirmək və hər bir vətəndaşın həyatını daha da yaxşı etməkdir”.

### ”Əməkhaqqı və pensiya artımları davam edəcək”

Dünyada ardıcıl olaraq baş verən böhranlar, münaqişələr iqtisadi sahə ilə yanaşı, sosial sahədə də ciddi problemlər yaradıb. Bir çox ölkələr sosial böhranlarla qarşılaşıb və əhalinin vəziyyəti xeyli ağırlaşıb. Lakin Azərbaycanda bu baş verməd, çünki dövlət iqtisadi gəlirlərin sosial müdafiəyə yönəldilməsi üçün siyasət yürüdür. Prezident bunun necə baş verdiyini izah edib: ”İnflyasiya bu gün bütün dünyada ciddi bir problemə çevrilib. Hətta inkişaf etmiş Qərb ölkələrində ki, orada adətən inflyasiya 1 və ya maksimum 1,5 faizdən yüksək olmurdu, bu gün inflyasiya 10 faizi üstələyir.

Azərbaycandakı inflyasiya idxal edilmiş inflyasiyadır. Çünki biz əlbəttə, dünya iqtisadiyyatının bir parçası olduğumuz üçün bir çox malları idxal edirik və bu istiqamətdə də çalışırıq ki, idxalı əvəzləyən yerli istehsal daha geniş vüsət alsın. Amma hələ təbii ki, idxaldan asılıyıq. Ona görə, əgər belə demək mümkündürsə, inflyasiya Azərbaycana idxal edilib. Keçən ilin nəticələrinə görə 13,9 faiz təşkil edib. Yəni, bu idxal edilmiş inflyasiya ilə bizim mübarizə imkanlarımız kifayət qədər məhduddur. Halbuki keçən il aparılan islahatlar nəticəsində, o cümlədən biznes mühitinin yaxşılaşdırılması, sağlam rəqabətin təşviqi, inhisarçılığa qarşı mübarizə, həmçinin gömrük sistemində olan pozuntuların aradan qaldırılması, kadr islahatları, əlbəttə ki, burada da müsbət rol oynayacaq.

Ancaq bununla paralel olaraq, biz, ilk növbədə, qeyd etdiyiniz kimi, sosial rifah haqqında nəinki düşünməli idik, praktiki addımlar atmalı idik. Ona görə minimum əməkhaqqının 15 faiz artması əlbəttə ki, inflyasiyanın fəsadlarının yumşaldılmasına hesablanıbdır və minimum əməkhaqqı artıq 345 manata çatıbdır. Bu, bizi qane edir? Əlbəttə ki, yox. Amma biz imkan daxilində öz addımlarımızı atırıq. Çünki bir daha demək istəyirəm, bizim əsas xərclər istiqaməti Qarabağı və Şərqi Zəngəzuru bərpa etmək və ordu potensialımızı gücləndirməkdir. Bu iki əsas prioritet bizim üçün uzun illər prioritet kimi qalacaq.



Eyni zamanda, pensiyaçıların sosial təminatının yaxşılaşdırılması üçün minimum pensiya da 16,7 faiz artırıldı, 280 manata çatdı və bu proses davam etdiriləcək. Yəni, son illərin təcrübəsi onu göstərir ki, bu, bir dəfə atılan addım deyil, bu, müntəzəm olaraq atılan addımlardır və iqtisadi imkanlarımız artdıqca, əlbəttə ki, gələcəkdə də buna oxşar addımlar atılacaq.

Ünvanlı sosial yardımın verilməsi ilə bağlı çox böyük şəffaflaşdırma işi aparılmışdır. Əvvəlki dövrlərdə bu sahədə çox böyük pozuntulara yol verilmişdir. Ehtiyacı olmayan insanlara sosial yardım verilirdi və əlbəttə ki, bunun arxasında təmənna dayanırdı. Ehtiyacı olan insanların isə buna əli çatmırdı. Ona görə bu sahədə çox geniş təftiş işi aparılmışdır. Bu gün 60 minə yaxın ailə dövlətdən ünvanlı sosial yardım alır və ildən-ilə bu yardımın məbləği artır. Yəni, bu il bir ailəyə düşən müavinət təqribən 460 manat səviyyəsindədir və əlbəttə ki, il ərzində artacaq, o cümlədən orta aylıq əməkhaqqı da. Biz gözləyirik ki, bu il Azərbaycanda orta aylıq əməkhaqqı 900 manatdan çox olacaq. Beləliklə, sosial sahədə bu addımları ataraq həm ehtiyacı olan insanlara arxa-dayaq oluruq, eyni zamanda, biz öz siyasətimizə sadiqliyimizi göstəririk.

### ”13 min müharibə əlili və şəhid ailəsinə mənzil verilib”

Dövlətimizin sosialı müdafiə siyasətinin bir istiqaməti də şəhid ailələri və müharibə əlillərinə dəstəklə bağlıdır. Keçən il bu istiqamətdə də önəmli addımlar atılıb. Dövlət başçısı bu addımların nədən nibarət olduğunu izah edib: ”Bu kateqoriyadan olan 1500 ailəyə dövlət tərəfindən mənzillər verildi. 2021-ci ildə isə 3 min mənzil verilmişdi. Bu il də ən azı 1500 mənzil veriləcək. Beləliklə, hələ növbədə duran bu kateqoriyadan olan insanların hamısına dövlət tərəfindən mənzillər veriləcək.

Məlumat üçün deyə bilərəm ki, bu günə qədər 13 min ailə bu imkanlardan faydalanıb. Bu da müharibə yaşamış ölkələr arasında, belə demək mümkündürsə, bir bizim yeniliyimizdir. Çünki bir çox ölkələrdə belə praktika yoxdur. Biz bunu nə üçün edirik? Çünki bu, o ailələr qarşısında bizim mənəvi borcumuzdur və bu borcu imkan daxilində yerinə yetirməyə çalışırıq.

İkinci Qarabağ müharibəsində əlil olmuş 379 hərbçi ən müasir protezlərlə təmin edilib. Cəmi iki il keçməsinə baxmayaraq, İkinci Qarabağ müharibəsinə aid olan bu proqram tam yerinə yetirilib. Bu proqramın icrası mətbuatda da işıqlandırılıb. Hər kəs görə bilir ki, bizim qazilərimiz hətta futbol oynaya bilirlər. Əl protezləri daha mürəkkəb texnologiyaya malikdir. Mənə verilən məlumata görə, ən müasir texnologiyadan olan əl protezlərinin əl tutma funksiyası təqribən 40-a çatır. Yəni, biz öz sağlamlığını itirmiş soydaşlarımıza maksimum dərəcədə kömək göstərməyə çalışırıq. Əlbəttə ki, bu, yüksək texnologiyalı protezlər olduğu üçün onlar vaxtaşırı dəyişdirilməlidir. Bütün bu proqramlar da gündəlikdədir”.

### Azərbaycan sosial dövlətdir və bunu əməldə təsdiqləyir

Sosial sahə çoxşaxəli sahədir. Buraya özünüməşğulluq proqramını da əlavə edə bilərik. Bu, həm sosial, həm iqtisadi sahədir. Çünki bu, kiçik biznesi təşviq edən sahədir. Ancaq dövlət başçısı buna daha çox sosial sahə kimi baxdığını deyib: ”Bir neçə il ərzində belə bir təşəbbüs irəli sürüldü. Çox böyük maraq doğurdu və bu gün 60 min ailə özünüməşğulluq proqramına cəlb edilib. Hətta biz beynəlxalq maliyyə institutlarını da bu proqrama cəlb etmişik. Bu, həm sosial, həm iqtisadi, həm iş yerlərini, yəni, bütün bu sahələri əhatə edən bir sahədir. Ona görə bu il də istisna olmayacaq. Çünki bir daha demək istəyirəm, Azərbaycan sosial dövlətdir və biz bunu sözlə yox, əməlimizlə təsdiqləyirik. İmkan daxilində bu il də bu proqramlar icra ediləcək”.

Göründüyü kimi, dövlətimizin artan iqtisadi gəlirləri daha çox əhalinin sosial rifahının gücləndirilməsinə yönəldilir. Baxmayaraq ki, ağır müharibədən sonra dövlətin xərcləri xeyli artıb. 15 min kv km ərazimiz xarabalığa çevrilib, yüzlərlə kənd və şəhər bərpa olunmalı, böyük infrastruktur sistemləri qurulmalı, minlərlə sosial, mədəni və iqtisadi təyinatlı obyektlər tikilməlidir. Ordumuzun maddi-texniki bazası daha da genişləndirilməli və gücləndirilməlidir. Belə bir vəziyyətdə dövlət əhalinin sosial müdafiəsi üçün mümkün olan hər şeyi edir.

Əhalinin məşğulluq probleminin həlli, sosial yardıma ehtiyacı olan kateqoriyaya yardımların artırılması, müharibə əlillərinə və şəhid ailələrinə qayğının yüksəldilməsi əsas prioritetlərdən biri hesab olunur. Bir sözlə, dövlətimiz artan iqtisadi gəlirlərindən əhalinin sosial rifahının yüksəlməsi üçün maksimum istifadə edir. Məhz bu səbəbdən Azərbaycan dünyada sosial dövlət kimi tanınır.

***Elçin***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.***

SON SƏHİFƏ
Səs
12 yanvar
2023-cü il

# Ten Haq "Mançester Yunayted"in tarixinə düşdü



*"Mançester Yunayted"in baş məşqçisi Erik Ten Haq rekorda imza atıb. Qol.az xəbər verir ki, ötən gün İngiltərə Liqa kubokunun 1/4 finalında Ten Haqın komandası "Çarlton"u 3:0 hesabı ilə məğlub edib.*

Bu, niderlandlı mütəxəssisin "Mançester Yunayted"lə 20-ci qələbəsi olub. O, klub tarixində 20-ci qələbəni ən tez qazanan baş məşqçi olub. Komanda Ten Haqın rəhbərliyi ilə 27-ci oyunda buna nail olub. Müqayisə üçün bildirək ki, komandanın sabiq baş məşqçilərindən Joze Mourinyo 20 qələbəni 31, Lui Van Qal 36, Mett Basbi 40, Ole Qunnar Sulşer 42, Aleks Fergüsson 45 oyuna qazanıb.

# Restoranlarda depozit qiymətləri niyə "od bahasına"dır?



***"Mahiyyətcə restoran depoziti - müştəri tərəfindən alınan xidmətlər üçün öncədən (avans) ödənilən və müəssisənin qərarı ilə müəyyən edilmiş tarifdir. Depozit müştərinin aldığı xidmətlərin hesabında öncədən ödənilmiş məbləği əhatə edir. Digər sözlə desək, restoran depoziti - hesabın ödənilməsinin bir növüdür". Bu sözləri SİA-ya açıqlamasında DAİR Otellər və Restoranlar Assosiasiyası İdarə Heyətinin sədri Samir Dübəndi deyib.***

Onun sözlərinə görə, banket xidmətlərində isə alınan depozit, üstəlik, həmin gün digər müştərilərdən imtina edərək müəyyən edilmiş tədbir üçün restoranın qapalı olması mənasını da daşıyır: "Demək olar ki, restoranın depozit tarifi onun işinin itkisiz işləməsinin bir növ təminatçısıdır. Əslində, depozit üsulu restoranda masanın bronlaşdırılması ilə müqayisədə müştəri üçün daha əlverişlidir. Bron, bildiyiniz kimi, qaytarılmır və bron haqqı hesabdan əlavə ödənilir. Depozit isə hesabın ona bərabər hissəsini əhatə edir".

Samir Dübəndi sözlərinə belə davam edib: "Təcrübə göstərir ki, depozitlər bir neçə növ olurlar və restoran biznesində uğurla və geniş şəkildə istifadə edilirlər. Qaytarılan və yaxud qaytarılmayan depozitlər olur. Qonaqların loyallığını qorumaq üçün daha çox qaytarılan depozitlərdən istifadə edilir. Yəni, əgər qonaq restorana hər hansı səbəbdən gəlmirsə, onun depoziti qaytarılır. Bəzi hallarda müəyyən faiz çıxma şərtilə. Hər halda, depozitlərin ödənilməsi zaman müştəri və müəssisə arasında bütün şərtlər öncədən müzakirə edilib, təsdiqlənməlidirlər. Misal üçün, hansı tarixədək imtina etmək olar, bu tarixdən sonra hansı faiz tutulacaq və s. şərtlər bəlli olmalıdırlar.

Depozit restoran üçün faydalı ödəniş qaydasıdır və öncə qeyd etdiyim kimi, bununla müəssisə öz itkisiz fəaliyyətini haradasa təmin etmiş olur.

Qeyd etmək istərdim ki, depozitlərin istifadə edilməsi bir növ bu müəssisələri klub formatında çalışmağa meyilli olmaqlarına işarə edir. Müştəri üçün də depozitin üstün tərəfləri var: o, öncədən menyu və qiymətlər ilə tanış olur, xərclədiyi məbləği öncədən planlaşdırır.

Verdiyiniz suallardan və bizim müşahidələrimizə görə bəlli olur ki, depozit anlayışını ölkənin ictimai iaşə sektorunda düzgün anlamayan və ondan düzgün istifadə etməyənlərin sayı az deyil. Burada fürsətçilik, spekulyasiya faktları ilə üzləşirik, depozit anlayışının müştərilər və müəssisələr tərəfindən yanlış tərif edilməsini də müşahidə edirik.

Yada salmaq istərdim ki, istehlakçıların hüquqlarının pozulmasında təqsirli bilinən şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada mülki, inzibati və cinayət məsuliyyət daşıyırlar.

Ona görə tövsiyə edərdim ki, ictimai iaşə müəssisələri və bu müəssisələrin xidmətlərindən istifadə edən vətəndaşlar depozit və digər ödəniş üsulları zaman tərəflər arasında yaranmış hüquqi əqdlərə diqqətli olsunlar, öz hüquq və vəzifələrini düzgün anlasınlar".

***A.Vəli***

# Bu gün yollar buz bağlayacaq



Azərbaycanda yanvarın 12-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, Bakının və Abşeron yarımadasının bəzi yerlərində yanvarın 11-dən 12-nə keçən gecə havanın az yağıntılı olacağı, qar yağacağı, səhər tədricən kəsiləcəyi, gün ərzində əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1-3° şaxta, gündüz 1-3° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 784 millimetr civə sütunundan 781 millimetr civə sütununa enəcək. Nisbi rütubət 65-75 faiz təşkil edəcək. Yanvarın 11-dən 12-nə keçən gecə şəhərətrafı yollar buz bağlayacaq.

Azərbaycanın rayonlarının bəzi yerlərdə havanın arabir yağıntılı olacağı, sulu qar, qar yağacağı, bəzi şərq rayonlarında intensiv olacağı ehtimalı var. Gündüz qərb rayonlarından başlayaraq yağıntılar tədricən kəsiləcək. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi bəzi şərq rayonlarında arabir güclənəcək. Havanın temperaturunun gecə 2-6° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti, dağlarda gecə 15-20°, gündüz 5-10° şaxta olacağı ehtimal edilir. Dağlıq və dağətəyi rayonlarda yollar buz bağlayacaq.

# İmtahana qatıla bilməyən tələbələrə əlavə şans veriləcək?



TƏHSİL EKSPERTİ AÇIQLADI

"İlk növbədə qeyd edim ki, hal-hazırda ölkənin 51 ali təhsil müəssisəsində 187 min tələbə təhsil alır. Bu il təkcə birinci kursa gedənlərin sayı 48 min nəfərdir. Etiraf edək ki, ali və orta ixtisas müəssisələrində hava şəraiti ilə bağlı imtahanların keçirilməsində problem var. Bildiyimiz kimi, yanvar ayının 5-dən etibarən ali və orta ixtisas təhsil müəssisələrində qış imtahan sessiyası başlayıb. Son 3 gün ərzində Bakıda və ölkə ərazisindəki hava şəraiti imtahanların keçirilməsinə müəyyən çətinlik yaradıb. Məsələn, ADNSU-da bir imtahan günündə 72-dən çox şəxs imtahanda iştirak edə bilməyib. Çünki qarlı hava şəraiti nəqliyyatın hərəkətinə müəyyən təsir göstərib və tələbələrin imtahana çatmasında problemlər yaranıb". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.



Onun sözlərinə görə, bu problemi iki formada qaldıra bilərik: "Birincisi, hava şəraiti ilə bağlı olaraq imtahanlarda iştirak etməyən şəxslərə imtahan sessiyası bitdikdən sonra əlavə bir gün müəyyənləşdirib imtahan keçirmək olar.

İkinci yol odur ki, Azərbaycanda 2020-ci ilin martından etibarən pandemiya səbəbindən dərslər onlayn formatda keçirilir və imtahanların onlayn formada keçirmək olar. Çünki biz, 3 semestr bundan əvvəl bütün imtahanları onlayn rejimdə həyata keçirmişik".

Kamran Əsədov sözlərinə belə davam edib: "Təbii ki, ən yaxşı hal o olardı ki, imtahanlar növbəti tarixlərə salınsın. Amma ortada toqquşma olarsa, yaxud Bakıda, imtahan keçirilən rayonlarda çətinliyi olarsa fərqi qaydada onlayn rejimdə imtahan keçirilməsi mümkün ola bilər. Amma bütün hallarda bilik qiymətləndiriləcək. İstər Bakı, istərsə də bölgələrdə qarlı hava şəraiti uzun davam etməyəcək. Tələbələrin biliklərinin qiymətləndirilməsi üçün onlara əlavə şans verilməsi yaxşı olardı".

***Ayşən***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3600